QARABAĞ AZƏRBAYCANDIR!



**Böyük Qayıdış: dünyada analoqu olmayan layihələr**

6

# Yeni ildə yeni sosial islahatlar mərhələsində

8



Səs
№ 002 (6685) 7 yanvar 2023-cü il. Qiymәti 60 qәpik

# Güclü dövlət, güclü ordu, Qalib Lider!

5



**Qarabağ hansı faydalı qazıntılarla zəngindir?**



4

**Vəfat edən insanın pensiya kapitalı kimə verilir?**



12

**İşxan Verdyan: "Erməni xalqı öz tarixində ondan dəyərsiz rəhbər görməyib!"**



9

**"France 24" telekanalından Türkiyəyə qarşı təxribat**

7



**Topxana meşəsinin bərpasına başlanıb**



9

**Aksiyanın 26-cı günü, Paşinyanın səsi-ünü**



12

Artıq 26 gündür ki, azərbaycanlı ekofəallar ermənilər tərəfindən Azərbaycanın ekologiyasına ciddi ziyan vurulması və təbii sərvətlərimizin qanunsuz talan olunmasına qarşı Xankəndi-Laçın yolunda...

# Vaxta və xərclərə qənaət, operativlik KOB evlərinin əsas üstünlükləridir



Prezident İlham Əliyev "Bakı KOB evi"nin açılışında iştirak edib







***Azərbaycan Prezidenti İlham Əliyev ”Bakı KOB evi”nin açılışında iştirak edib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov paytaxtın Nərimanov rayonunda yerləşən ”Bakı KOB evi” barədə dövlətimizin başçısına məlumat verib.***

Bildirildi ki, sayca 3-cü olan ”Bakı KOB evi”nin ümumi sahəsi 11 min 262 kvadratmetrdir. Üçmərtəbəli binanın ilk iki mərtəbəsi sahibkarlara xidmət göstərilməsi, üçüncü mərtəbə isə işçi heyət üçün nəzərdə tutulub. ”Bakı KOB evi” gün ərzində beş min sahibkara xidmət göstərmək potensialına malikdir. Binada yaradılmış görüş, təlim, startap, mediasiya otaqları və konfrans zalı da sahibkarların xidmətində olacaq.

”Bakı KOB evi”ndə sahibkarlara 29 dövlət qurumu tərəfindən 150-dən çox, 20 özəl qurum tərəfindən isə 100-dən çox adda xidmətlər göstəriləcək. Sahibkarlar fəaliyyət üçün zəruri olan biznesin qeydiyyatı, lisenziya və icazələrin alınması, biznes-planın hazırlanması, güzəştli maliyyə vəsaitlərinə çıxış, vergi, gömrük, kommunal xidmətlərə qoşulma, bank, sığorta və digər məsələlərlə bağlı ”Bakı KOB evi”nə müraciət edə bilərlər. Bununla yanaşı, ”Bakı KOB evi”ndə yaradılmış Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonasında gömrük və idxal-ixrac əməliyyatları ilə bağlı geniş spektrli xidmətlər də təqdim ediləcək.

Diqqətə çatdırıldı ki, KOB evləri sahibkarlara dövlət və biznes xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim edildiyi vahid məkandır. Burada xidmətlər operativlik, şəffaflıq, nəzakətlilik və rahatlıq prinsipləri əsasında həyata keçirilir. Biznes xidmətlərinin bir məkanda toplanması, vaxta və xərclərə qənaət, operativlik KOB evlərinin əsas üstünlükləridir.





Hazırda fəaliyyətdə olan Xaçmaz və Yevlax KOB evlərində indiyədək sahibkarlara 170 mindən çox xidmət göstərilib ki, bu xidmətlərin 165 mindən çoxu dövlət-biznes (G2B), 9 minə yaxını isə biznes-biznes (B2B) xidmətləridir. Sahibkarların KOB evlərinin xidmətlərindən məmnunluq göstəricisi 98 faizdir.

Qeyd edək ki, Azərbaycanın davamlı iqtisadi inkişafının təmin edilməsində sahibkarlığın, xüsusilə kiçik və orta biznesin rolunun artırılması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Ölkəmizdə özəl sektorun inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlərin davamı olaraq dövlətimizin başçısının 2017-ci il 28 dekabr tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılıb.

KOBİA tərəfindən sahibkarlara informasiya, məsləhət, təlim-tədris, maraqların müdafiəsi, bazarlara və maliyyə resurslarına çıxışın yaxşılaşdırılması, dövlət və özəl qurumlarla əlaqələndirmə və digər istiqamətlərdə dəstək və xidmətlər göstərilir. Bu dəstək və xidmətlər KOBİA-nın ölkənin müxtəlif şəhər və rayonlarını əhatə edən geniş infrastruktur şəbəkəsi - KOB dostları, KOB inkişaf mərkəzləri və KOB evləri vasitəsilə həyata keçirilir. Belə ki, KOB inkişaf mərkəzləri KOB-ların biznes biliklərini artırmaq üçün ödənişsiz olaraq informasiya, məsləhət, təlim və biznes-planın hazırlanması xidmətlərini təklif edir. Ölkənin regionlarında KOB-ların maraqlarının müdafiəsi, lazımi dəstək və xidmətlərə çıxışı 38 şəhər və rayonda fəaliyyət göstərən ”KOB dostu” şəbəkəsi vasitəsilə reallaşdırılır.

Bundan başqa, KOBİA tərəfindən mikro və kiçik sahibkarlıq subyektlərinə onların innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edən ”Startap” şəhadətnaməsi verilir, daxili bazar araşdırmasının aparılmasına, təhsil, elm, tədqiqat və dəstək layihələrinə maliyyə dəstəyi göstərilir, onların ödənişsiz olaraq sərgilərdə iştirakına və ticarət şəbəkələrinə çıxışına dəstək təmin olunur.

# Güclü dövlət, güclü ordu, Qalib Lider!




## *Son 19 ildə Prezident İlham Əliyevin diplomatik və "Dəmir siyasəti" 44 gündə mümkünsüzü mümkün etdi*

Ali Baş Komandan, Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, "Bizim məqsədimiz güclü ordu yaratmaqdır. Biz bunu edirik, yaradırıq, biz daha da möhkəm orduya malik olacağıq". Bu gün Azərbaycan regionda ən güclü orduya malik ölkə statusunu daşıyır. Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından Azərbaycan nümunəvi dövlət olaraq qəbul edilir. Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğu nəticəsində Azərbaycan Ordusu çevik, peşəkar və müasir standartlar səviyyəsinə çatdırılması sahəsində mühüm işlər görülür. İşğaldan azad olunan bölgələrdə xüsusi təyinatlı hərbi hissələrin yaradılması, müasir hərbi texnika və silah-sursatla təchizat bunun əyani təzahürüdür. Xüsusən də yeni yaradılan Komando briqadaları bir yenilikdir, Azərbaycanda ilkdir. Ali Baş Komandanın göstərişinə əsasən müxtəlif hərbi təlimlərin keçirilməsi, hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması, ordumuzun müasir silah, hərbi texnika ilə təchiz edilməsi və digər bir sıra tədbirlərin həyata keçirilməsi Azərbaycan Ordusunun Ermənistan or-

Əliyev də çıxışlarının birində demişdi ki, müasir mütəşəkkil ordu yaradılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri olub. Hadisələrin sonrakı inkişafının sübut etdi ki, 1993-cü ilin 15 iyununda ulu öndər Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra ölkəmizdə bütün sahələr kimi ordu quruculuğu prosesi də sürətlə inkişaf etməyə başladı. Və bu Azərbaycan torpağında ölür".

Azərbaycan Prezidenti ölkənin ərazi bütövlüyünün bərpa olunacağı və bunun istənilən yolla təmin ediləcəyinə dair vədinin 44 günlük Vətən müharibəsində yerinə yetirilməsi bir daha bu sözləri təsdiqlədi.

### MÜSTƏQİLLİK TARİXİNİN 2022-2023-CÜ İLLƏRİN ZƏFƏR BÜDCƏSİ

xımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət bir daha onu göstərir ki, 2023-cü il Heydər Əliyev ili də Azərbaycanın yüksəlişində növbəti uğurlu dövr olacaq. Belə ki, bu yeni 2023-cü ilin dövlət büdcəsi inkişafın dayanıqlı olması üçün güclü maliyyə təminatı yaradır. Büdcə layihəsində gəlir və xərclərin təhlili göstərir ki, növbəti il üçün əsas maliyyə planı





müasir tələblərə cavab verə bilən ordu kimi formalaşıb. İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərdən sonra isə ordumuzun daha da modernləşməsi istiqamətində qarşıya yeni vəzifələr, tələblər qoyulub.

### ORDU QURUCULUĞU PROSESİ YENİ MƏRHƏLƏDƏ

Vətən müharibəsi ordumuz üçün həm də bir təcrübə, sınaq oldu. İllərlə keçirilən təlimlər, alınan silah-sursatlar, müasir texnikalardan yararlanmaq və ən başlıcası, vahid komandanlıq sisteminin idarə edilməsinin uğurlu nəticəsi əsl reallığı əks etdirdi. Eyni zamanda, hərbidə bəzi çatışmazlıq, əskiklik olan tərəflər də müəyyənləşdi.Vətən savaşında böyük döyüş təcrübəsi toplayan Silahlı Qüvvələrimizin maddi-texniki bazasının ən dusu üzərində qazandığı üstünlüyünün qorunub saxlanmasını təmin edir.

### 44 GÜNDƏ MÜMKÜNSÜZÜ MÜMKÜN EDƏN GÜCLÜ AZƏRBAYCAN ORDUSUDUR

Azərbaycanın zəngin dövlətçilik tarixində güclü ordunun yaradılması hər zaman prioritet məsələlərdən olub. Müasir Azərbaycan dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası, müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Ali Baş Komandan, Prezident İlham uğurlu siyasətin layiqli davamçısı son 19 ildə Prezident İlham Əliyevin diplomatik və "Dəmir siyasəti" nəticəsində 44 gündə mümkünsüzü mümkün edən Güclü Azərbaycan Ordusu 30 illik torpaq həsrətinə son qoyaraq qələbə Zəfərinə nail oldu. Bu Zəfər qələbəsi Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaratdı. Silahlı Qüvvələrimiz döyüş meydanında öz qəhrəmanlıqlarını sərgilədi.

Dövlət başçımızın dediyi kimi, bizim əsgərlərimiz öz doğma torpaqlarında vuruşur: "Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında -

Bu gün Azərbaycan son 19 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib və bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Ali Baş Komandanın rəhbərliyi ilə bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələrinə çevrilib, regionun və dünyanın 50 güclü orduları sırasına yüksəlib. Və 2022-ci il dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik istiqamətləri üzrə 4 milyard 489 milyon 892 min 429 manat vəsait ayrılmışdır. 2023-cü ildə isə dövlət büdcəsindən milli təhlükəsizlik xərclərinə ayrılan vəsait 375 milyon 354 min 411 manat təşkil edir, əvvəl isə bu, 364 milyon 236 min 911 manat təşkil edirdi.

Bir sözlə, ötən bir il ərzində həm siyasi, həm də iqtisadi ba- xalqımızın rifahının daha da yaxşılaşmasını və ölkəmizin qüdrətinin yüksəlməsini, Qarabağımızın yenidən dirçələcəyini və iqtisadi inkişafın davamlılığını təmin edəcək. Və növbəti mərhələdə Cənab İlham Əliyevin yeni-yeni hədəflərə hesablanmış strategiyasına uyğun olaraq Azərbaycan inkişaf, tərəqqi yolunda daha da böyük addımlarla irəliləyəcək, güclü dövlətin güclü ordusu çox tezliklə, Qarabağın işğal olunmuş ərazilərimizi də geriyə qaytaracaq! Həmçinin, əlində silah gecə-gündüz Vətənə keşik çəkən igid əsgər və zabitləri vardır və işğalçı Ermənistan qeyri-konstruktiv mövqeyindən əl çəkərək, Azərbaycan torpaqlarını qeyd-şərtsiz azad etməlidir, əks-təqdirdə, təcavüzkar Ermənistan qarşısında qüdrətli Azərbaycan Ordusunun gücünü bir daha görəcək!

***RƏFİQƏ KAMALQIZI***

# Qarabağ hansı faydalı qazıntılarla zəngindir?





***Təbii ehtiyatlar cəmiyyətin maddi və mədəni tələbatını ödəmək üçün istehsal prosesində istifadə olunan təbii mühitin tərkib hissələridir. Təbii sərvətlər təbii mənşəyinə görə fizikidir, lakin istifadə prosesində onlar iqtisadi sərvətə çevrilirlər.***




### Yanacaq Mineral Ehtiyatları

Yanacaq mineral xammalları çöküntü mənşəlidir, buna görə də onlar qeyri-bərabər paylanır və platforma strukturlarının çöküntü örtükləri ilə məhdudlaşır. Bəşəriyyətin mineral yanacaqla təminatının təxminən 1000 yaşı var. Ehtiyatların 60%-i kömür, 27%-i isə karbohidrogen yanacağının payına düşür. Eyni zamanda, ilkin enerji mənbələrinin dünya istehlakının strukturu fərqli şəkildə inkişaf edir.

### Ölkəmiz hansı faydalı qazıntılar ilə məşhurdur?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Respublikamızda dolomit, tabaşir, tikinti gilləri, çay daşı, qum və s. olduqca çoxdur. Nefçala, Mişovdağ, Babazənən, Böyükşor yodlu-buromlu su yataqları Nefçala yod-brom zavodunu xammalla təchiz edir. Respubilka Müxtəlif kimyəvi tərkibli mineral su ehtiyatları ilə zəngindir. Buna görə Azərbaycan ərazisi "mineral sular muzeyi" adlandırılır.

Azərbaycanın Kişik Qafqaz hissəsində filiz yataqları daha çoxdur. Burada dəmir, manqan, titan, xromit, kobalt, mis, polimetal, sürmə, qızıl, gümüş, molibden və s. yataqları mövcuddur. Kiçik Qafqazın şimal yamacı müxtəlif faydalı qazıntılarla zəngin olduğu üçün "Azərbaycan uralı" adlandırılır. Qafqazda mənimsənilən ən iri dəmir filizi Daşkəsəndir. Bu yatağın filizi yüksək keyfiyyəti ilə fərqlənir. Zəylik alunit yatağı ehtiyatına görə dünyada tanınır. Kiçik Qafqaz və Naxçıvan MR ərazisi civə yataqları ilə də zəngindir. Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataq yataqları daha məşhurdur. Kəlbəcər və Zəngilan rayonlarının qızıl yataqları sənaye əhəmiyyətlidir.

Qarabağda 1993-cü ilədək tədqiq edilmiş yataqlar üzrə faydalı qazıntı ehtiyatları- 6,52 ton qızıl, 10,75 ton gümüş, 2 942 min ton mis konsentratı, 29 milyon m3 inşaat daşı, 14 milyon m3 çınqıl, 6 618 min m3 üzlük daşı, 1,1 milyon m3 gil, 2,5 milyon m3 qum, gündəlik ehtiyatı 18000 m3/gün yeraltı içməli su və 129 833 min ton soda üçün əhəng materialı mövcud olub.

Hazırda bu faydalı qazıntı yataqlarının vəziyyəti haqqında dəqiq məlumatlara malik olmasaq da, Azərkosmos Açıq Səhmdar Cəmiyyətinin təqdim etdiyi aerofotoşəkillərə əsasən erməni işğalçıları tərəfindən bu yataqların bir hissəsinin vəhşicəsinə istismar edilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın Sədri Amin Məmmədov:" Qeyd etmək lazımdır ki, 27 ildən çox işğal altında olan rayonlarımızda qiymətli əlvan metallarla- qızıl, gümüş, mis, malibden və s. ilə zəngindir.

Həmçinin, tikinti xammalı materialları çay daşı, mərmər daşı mərmər mişar daşı, sement xammalı və digər təbii sərvətlərlə zəngindir. Bundan başqa, Kəlbəcər ərazisində mineral su ehtiyatları da mövcuddur və sovet dövründə orada sanatoriyalar fəaliyyət göstərmişdir.

Müalicəvi əhəmiyyətli olan Mineral sular ölkənin iqtisadiyyatına böyük fayda gətirirdi. Sanatoriyada müalicə alanların turizmə verdiyi töhfələr, həmçinin, o suyu qablaşdırmaqla istər daxili, istərsə də xarici bazarda satışından əldə olunan gəlir ölkə iqtisadiyyatına xeyli gəlir gətirirdi.

Bu baxımdan, bu 27 il ərzində həmin ərazilərdəki 160-dan çox təbii sərvətlərdə olan yataqlar əksəriyyəti istismar olunurdu. Qanunsuz şəkildə istismar nəticəsində Kəlbəcərdə söyüdlü yatağında 10 tonlarla qızıl xarici investorlarla birlikdə daşınıb. Bu sərvətlərin çıxarılması ekoloji normalara riayət olunmada həyata keçirilmişdir ki, bu da həmin ərazilərin ətraf mühitinə xeyli ziyan vurub.

Yəni o filizin, qızılın, gümüşün ayrılması prosesində ayrılan tullantılar həmin ərazilərə axıdılmışdır. Həmin əraziləri təmizləmək üçün ölkəmiz əlavə vəsait xərcləmək məcburiyyətində qalacaq.

Hazırda da aksiyanın tələbində irəli sürdüyümüz qızıl bulaq və dəmir yataqları hələ də istismarı keçən həftəyə kimi davam edirdi.

2020-ci il noyabrda vətən müharibəsi bitəndən sonra da bu istismar davam edirdi və artıq hökumətin əlində faktlar var idi ki, istismar nəticəsində həmin ərazilərə külli miqdarda ziyan dəyib. Aksiyanın da səbəbi elə bununla əlaqədardır. Tələbimiz odur ki, bu monitorinq aparılmalıdır və ora dəymiş zərər qiymətləndirilməlidir.

Düşmən tərəfi talan edərkən heç bir ekoloji normativlərdən, yeni texnologiyalardan istifadə etməyiblər. Bugünkü etirazımızda istəyirik ki, oradakı fəsadlardan özümüzü sığortalayaq və problemlərin qarşısını indidən almağa çalışaq".

***Havar Şəfiyeva***

# 2022-ci ilin diplomatik mənzərəsi, yaxud əsas rəqibimiz zamandır!

***Artıq yola saldığımız 2022-ci il həm regional, həm də beynəlxalq müstəvidə mühüm hadisə və proseslərlə yadda qaldı. Ötən il Azərbaycan üçün uğurlu olmaqla yanaşı, ölkəmizin qarşısında yeni perspektivlərin açılması ilə də xarakterikdir. Çünki həm daxili arenada, həm də beynəlxalq müstəvidə görülən işlər - siyasi, iqtisadi, diplomatik addımlar əsas hədəfə - qalib Azərbaycanın milli gücünün və nüfuzunun artmasına, tarixi Zəfərin daimi prosesə çevrilməsinə xidmət etdi və mühüm nəticələr verdi.***



Bütün müstəvilərdə olduğu kimi, diplomatik cəbhədə də mühüm uğurlara imza atdıq.

Azərbaycanın strateji tərəfdaşlıq və dostluq münasibətləri inkişaf etdi, ənənəvi tərəfdaşlarla əlaqələri, beynəlxalq mövqeyi daha da möhkəmləndi. Ən əsası, iki il əvvəl döyüş meydanında qazandığımız tarixi Qələbəmizi siyasi müstəvidə daha da möhkəmləndirdik.

İl ərzində keçirilən üçtərəfli görüşlərdə Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi sayəsində konkret irəliləyişlərə nail olundu. Ermənistan ölkəmizin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdı. Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün bütün şərtlər təmin edildi.

Asiyadan Avropaya doğru geniş bir coğrafiyada bir çox dövlətlərin maraqlarına cavab verən Zəngəzur dəhlizinin reallaşdırılması məsələsində də rəsmi Bakı bütün diplomatik və siyasi təzyiqlərə rəğmən, öz prinsipial mövqeyindən bir addım da geri çəkilmədi.

Azərbaycanın beynəlxalq miqyasda qazandığı nailiyyətlər, Prezident İlham Əliyevin xarici səfərləri, səfərlər zamanı imzalanan mühüm sənədlər, səsləndirilən bəyanatlar 2022-ci ildə əldə olunan diplomatik nailiyyətlər sırasında yer alır. Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, Avropa İttifaqı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatlar çərçivəsində aktiv fəaliyyət ölkəmizin təkcə regionda deyil, eləcə də bütün dünyada mövqeyini daha da möhkəmləndirdi, Azərbaycanın dünyada etibarlı tərəfdaş olduğunu bir daha ortaya qoydu.

Aİ üzvü olmayan Azərbaycanın Prezidentinin Praqada keçirilən "Avropa siyasi birliyi" Zirvə Toplantısına qatılması, Ərəb Dövlətləri Liqasının sammitində isə Fəxri qonaq statusunda iştirakı isə ölkəmizin həm Avropa, həm də Afrika və Asiya qitələrində regional və qlobal məsələlərin həllində oynadığı rola verilən yüksək qiymətin bariz təzahürü idi.

Qarşıda - yenicə qədəm qoyduğumuz 2023-ci ildə isə məqsədimiz aydın, məramımız bəlli, hədəflərimiz isə daha böyükdür.

Ümummilli Liderimizin ideyaları əsasında müstəqillik, tərəqqi və Zəfər yolunda əmin addımlarla irəliləyən, Prezident İlham Əliyevin rəhbərliyi ilə zirvələr fəth edən Azərbaycanı "Heydər Əliyev İli"ndə yeni nailiyyətlər və diplomatik qələbələr gözləyir. Dövlət başçısının qeyd etdiyi kimi, bizim əsas rəqibimiz zamandır!

# Rusiya və Türkiyə yaxınlaşması Azərbaycana nə verəcək?

***"Türkiyə-Rusiya münasibətləri və Azərbaycanın bu prosesdən necə faydalanacağı Türkiyə ilə Azərbaycan arasında siyasi həmrəyliyin mühüm və həssas nümunəsidir. Türkiyə və Rusiya arasındakı bu yaxınlaşmanın uzunmüddətli perspektivdə müsbət və mənfi tərəflərini söyləmək çətindir. Tarixə nəzər saldıqda Türkiyənin Rusiya ilə münasibətləri dövri xarakter daşıyır". Bu sözləri SİA-ya açıqlamasında türkiyəli politoloq Hakan Aktürk deyib.***

Onun sözlərinə görə, buraya Avropa ilə ticarət həcmi və NATO ilə müttəfiqlikləri də əlavə olunduqda Türkiyənin daimi olaraq Rusiyaya üz tutması çətindir: "Bu yaxınlaşma iki ölkənin dövri ehtiyacları ilə bilavasitə əlaqədardır. Bu qısa müddət ərzində prezidentimiz Rəcəb Tayyib Ərdoğanın valyutaya böyük ehtiyacı var. Rublla qarşılıqlı ticarət edək, dollardan istifadə etməyək qısa müddətdə daxili siyasət materialıdır, onun iqtisadi qarşılığı yoxdur. Türkiyə rubl əldə etmək üçün öz xarici valyutasından istifadə edəcək, Rusiya da valyuta bazarlarında ticarət



**TÜRKİYƏLİ POLİTOLOQ AÇIQLADI**

edəcək".

Hakan Aktürk sözlərinə belə davam edib: "Türkiyə və Rusiyanın yaxınlaşmasını vacib hesab edirəm. Bu vəziyyət Türkiyə və Rusiya üçün bir fürsətdir. İki ölkə arasındakı əməkdaşlığa gəlincə, "Mən bu qənaətdəyəm ki, Türkiyə uzunmüddətli perspektivdə Rusiya ilə yaxınlaşarsa, Rusiyanın şah damarı Türkiyə olacaq. Türkiyə ilə Rusiya arasında ticarət həcmi artmağa başlayıb və görünür daha da artacaq. Çünki yüz böyük şirkətin qərargahını İstanbula köçürməsi çox vacibdir. Bu, böyük bir əməliyyatdır. Türkiyə Rusiyanın əsas siması olacaq və bu Türkiyə üçün unikal bir fürsətdir.

Türkiyə güvən istehsal edən ölkədir. Kiminsə Rusiya ilə danışması lazımdır və bunu Türkiyə edir. Türkiyənin Rusiya ilə münasibətləri Azərbaycanı təhlükəsiz zonaya çevirib. O cümlədən qaz, neft və enerji yataqları, eləcə də ölkə iqtisadiyyatı, Avropa və dünya ölkələri arasında ixrac və idxal sahələrində Azərbaycanı sahəyə sövq edən Türkiyə modelini görürük. ABŞ bundan narahatdır.

Türkiyə Rusiya yaxınlaşması Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın ağıllı addımları ilə irəliləməyə davam edən güclü bir birliyə çevrilir.

Digər tərəfdən Azərbaycan Prezidenti İlham Əliyevin "Türkiyə hara, Azərbaycan da ora" ifadələrindən sonra dünya ölkələri etibarlı siyasət və etibarlı qardaşlıq prinsipləri ilə böyüyən və inkişaf edən güclü birliyin uğurlu fəaliyyətini diqqətlə izləyirlər".

***Ayşən Vəli***

# "Qərbi Azərbaycan indiki Azərbaycan Respublikasının tarixi ərazisidir"

***Ermənilər Qərbi Azərbaycanı özününküləşdirmək üçün buradakı Azərbaycan toplumuna qarşı ağır hərbi cinayətlər törədiblər. Məhz ermənilərin etnik təmizləmə siyasəti nəticəsində Qərbi Azərbaycanlılar buradan deportasiya edilərək zorla çıxarılıb.***

Qərbi Azərbaycan ərazisi yeni Zəngəzur Göyçə və İrəvan qədim Azərbaycandır. Tarixi mənbələr göstərir ki məhz Çarizmin dövründə buraya ermənilər məqsədli və düşünülmüş şəkildə kütləvi halda köçürülərək Çar imperiyasına etnik dayaq yaradılmışdır. Bu siyasət rus çarı birinci Pyotrdan başlamış və Sovet-bolşevik hökuməti dövründə də daha ciddi şəkildə davam etmiş və Sovet hökumətinin ermənipərəst siyasəti nəticəsində isə Qərbi Azərbaycan torpaqları qeyri-qanuni şəkildə tamamilə ermənilərə verilərək burada yeni bu Azərbaycan torpaqları üzərində Sovet hökuməti tərəfindən indiki Ermənistan dövləti yaradılmışdır. Amma və lakin heçbir tarixi mənbə burada qədim erməni varlığını və tarixdə hər hansısa bir erməni dövlətinin mövcudluğunu təsdiq etmir. Yəni bütün tarixi mənbələr Qərbi Azərbaycan torpaqlarının məhz Azərbaycana aid olmasını mötəbər dəlilərlə sübut edir. Ancaq və lakin ermənilərin şovinist və etnik təmizləmə siyasəti nəticəsində Qərbi Azərbaycandakı Azərbaycan izləri dağıdılmış və yerlə yeksan edilmişdir. 1988-ci ildən isə başlayaraq bu ərazilərdə yaşayan Qərbi Azərbaycanlılar zorla və hərbi güc tətbiqi ilə öz dədə-baba torpaqlarından qovularaq ermənilərin etnik təmizləmə siyasətinin qurbanı olmuşdur. Qərbi Azərbaycan indiki Azərbaycan Respublikasının tarixi ərazisidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci ilin dekabrın 24-də Qərbi Azərbaycan icaması ilə keçirtdiyi görüş və Qərbi Azərbaycan icmasının inzibati binasının açılışını etməsi son dərəcə əlamatdar hadisədir. Qərbi Azərbaycanda yaşamış Azərbaycanlılara vaxtilə böyük zülm edilib onlar ağır təqiblərə hücumlara məruz qalıblar. Ermənilər orada yaşamış Azərbaycanlılara qarşı da genasid siyasəti yeridib.

Biz Azərbaycan Respublikası Prezidentinin Qərbi Azərbaycan məsələsinə dair fikirlərinə öz siyasi dəstəyimizi ifadə edirik. Qərbi Azərbaycan məsələsində də Azərbaycan haqqlı tərəfdir. Zəngəzur Göyçə İrəvan əraziləri hamısı tarixi Azərbaycan torpaqlarıdır.

Biz Azərbaycan dövlətinin atdığı hər bir addımı dəstəkləyir Qərbi Azərbaycanlıların hüquqlarının müdafiəsində də Azərbaycan dövlətinin və xalqının yanında olduğumuzu bildirir ermənilərin şovinist və etnik təmizləmə siyasətini isə şiddətlə pisləyir vaxtilə 1988-89 və daha sonralar ermənilərin bütün azərbaycanlılara qarşı həyata keçirtdiyi etnik təmizləmə və genasid siyasətini isə milli və irqi zəmində törədilən ağır hərbi cinayət və terror əməli hesab edirik.

***İsrail Təhlükəsizlik Akademiyasının Qafqaz üzrə Azərbaycan Respublikasındakı Regional Nümayəndəliyi***

*Dünyada Avropadan Asiyaya qədər olan məkanlarda böyük nüfuza sahib olan Azərbaycan 44 günlük Vətən müharibəsində qısa bir zamanda uğurlu əməliyyatlar nəticəsində düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad edərək bir daha dünyaya gücünü göstərmiş oldu. Tarixi Qələbəmizin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir.*

# Böyük Qayıdış: dünyada analoqu olmayan layihələr

Ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, əhalinin məşğulluq imkanlarını artırmaq və digər məsələləri reallaşdırmaq məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyevin ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncamı böyük əhəmiyyət kəsb edir. Müasir dövrün tələbləri nəzərə alınaraq mütərəqqi beynəlxalq təcrübə, nəzərə alınıb və Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir. Güclü iqtisadi inkişafa sahib olan Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2.2 milyard ABŞ dolları məbləğində vəsait ayrılıb. Böyük Qayıdışın ilk ünvanı olan Ağalıya edilən köç, eləcə də, Şuşada, Füzulidə və digər ərazilərdə görülən işlər, Füzuli Beynəlxalq Hava Limanın cəmi səkkiz ay ərzində tikilib istifadəyə verilməsi, Zəngilan Beynəlxalq Hava Limanını açılışı və s. işlərin uğurla davam etdiyini göstərir. 2025-ci ildə isə Laçında Beynəlxalq Hava Limanını istifadəyə verilməsi nəzərdə tutulur. Bərdə-Ağdam dəmir yolu isə cari ildə istifadəyə veriləcək. ”Böyük Qayıdış Proqramı uğurla icra edilir. Bir neçə şəhərdə artıq inşaat işləri geniş vüsət almışdır. İlk növbədə Şuşa, eyni zamanda, Ağdam, Füzuli, Zəngilan, Laçın şəhərlərində geniş quruculuq işləri gedir, xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir. Bununla bərabər, 10-dan çox kəndin Baş planı təsdiqləndi və bir neçə kəndin təməlini mən şəxsən qoymuşam. Bütövlükdə deməliyəm ki, azad edilmiş bütün şəhərlərimizin və qəsəbələrimizin Baş planları hazırlandı, təsdiqləndi. Bütün işlər Baş planlar əsasında gedəcək. Eyni zamanda, Böyük Qayıdış Proqramında bizim bütün planlarımız öz əksini tapıb və əminəm ki, yüz minlərlə keçmiş köçkün yaxın gələcəkdə öz doğma torpağına qayıdacaq”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirib.

Bərdə-Ağdam dəmir yolu 2023-cü ildə istifadəyə veriləcək. Təsdiq olunmuş investisiya planına əsasən, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel olacaq, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq. Azad olunmuş ərazilərdə elektrik təchizatı tamamilə bərpa edilib. İşğaldan azad olunmuş ərazilərdə bərpa olunan enerjinin potensialı on min meqavat təşkil edir. Artıq bir neçə su elektrik stansiyasının açılışı baş verib. Su elektrik enerjisinin ümumi gücü beş yüz meqavatdan çox olacaq. Yerdə qalan güc isə günəş və külək elektrik enerjisindən qaynaqlanacaq. Bu ərazi nəinki təkcə işğal illərində Azərbaycanın müxtəlif bölgələrində yaşamaq məcburiyyətində qalan insanları bir araya gətirəcək, eyni zamanda, gələcəkdə Azərbaycanın iqtisadiyyatı üçün aparıcı qüvvə olacaqdır.



*Prezident İlham Əliyev: "Yüz minlərlə keçmiş köçkün yaxın gələcəkdə öz doğma torpağına qayıdacaq"*

### ”MƏCBURİ KÖÇKÜNLƏR QAYIDIŞ GÜNÜNÜ SƏBİRSİZLİKLƏ GÖZLƏYİRLƏR”

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda ”Ağıllı kənd” konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Tariximizə yazılacaq Böyük Qaydışın ilk karvanı əzəli torpağımıza yol aldı. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Cənab Prezident çıxışlarının birində bildirdiyi kimi, biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və Zəngilan rayonu bu sahədə birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar. Nəhayət, həmin günə şahidlik etdik. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. Xatırladaq ki, Birinci, İkinci, Üçüncü Ağalı kəndləri 2020-ci ilin oktyabrın 28-də işğalçılardan azad edildi. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı idi. İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).Artıq Ağalı kəndinə birinci mərhələdə 41 ailə köçürülür. İlkin mərhələdə köçürülən ailələr əsasən müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb.Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin ”ağıllı” işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir. ”Bu il Ağalı kəndində həyat artıq bərpa edilib, - deyə Prezident bildirib: ”Birinci layihə icra edilmişdir və zəngilanlılar öz doğma torpağına qayıtmışlar. Bu, tarixi hadisədir. Çünki müharibədən iki il keçmədən - cəmi il yarımdan sonra biz artıq birinci keçmiş köçkünləri öz doğma torpaqlarına qaytarmışıq, onlar üçün gözəl şərait yaratmışıq. Bu, bir daha onu göstərir ki, dövlətimiz güclüdür və iradəmiz yerindədir. Eyni zamanda, bu, xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bizim vətəndaşlarımız öz dədə-baba torpaqlarına bağlıdır, necə deyərlər, torpaq çəkir. Hətta heç vaxt o yerləri görməyən gənclər, uşaqlar, məktəblilər böyük həvəslə Ağalıya qayıdıblar və bu, bir daha xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, məcburi köçkünlər qayıdış gününü səbirsizliklə gözləyirlər”.





### TALIŞ KƏNDİNDƏ 20 EV DOĞMA YURDLARINDAN DİDƏRGİN DÜŞƏN AİLƏLƏRƏ TƏHVİL VERİLƏCƏK

Bu gün artıq bir çox əraziləri-miz kimi, Tərtər rayonunun işğaldan azad edilmiş Talış kəndində də bərpa-quruculuq işləri davam etdirilir. İlkin mərhələdə 20 ev müasir tələblərə uyğun qurularaq bir zamanlar doğma yurdlarından didərgin düşən ailələrə təhvil veriləcək. Artıq 20 evin əsaslı təmirbərpa işləri başa çatıb. Evlərin daxilində kommunikasiya sistemi çəkilib, hər bir ev mətbəx mebeli ilə təchiz edilib. Məişət avadanlıqları sakinlərin köçürülməsindən öncə qurulub, tam hazır və işlək vəziyyətə gətiriləcək. Kənddə inzibati bina, məktəbdə, uşaq bağçasında, xeyir-şər evi və mağazada əsaslı təmir işləri davam edir. Talış kəndində qaz, elektrik, su, rabitə xətlərinin çəkilişi aparılır. Müasir kanalizasiya sistemi inşa olunur. Kəndarası yollar da yenidən qurulur. Yolların işıqlanması günəş panelləri ilə çalışan işıq dayaqları vasitəsilə həyata keçiriləcək.Tarixi dövrə nəzər salsaq görərik ki, Tərtər rayonunun inzibati ərazi vahidində olan Talış kəndi XVIII-XIX əsrlərdə mövcud olmuş Gülüstan məlikliyinin mərkəzi olub. Hansı ki, 1813-cü ildə imzalanmış Gülüstan sülh müqaviləsinin adı, toponomik cəhətdən bu məlikliyin adından götürülüb. Mərkəzi əvvəllər İncəçayın yuxarı hövzəsində olan Talış kəndi, sonralar isə Gülüstan qalası olan məliklik Səfəvilər dövründə Qarabağ bəylərbəyliyinin, ardınca isə Qarabağ xanlığının tərkibində olub. 1813-cü ildə xanlıqla birlikdə Rusiya tərəfindən ilhaq edilib. Bəzi mənbələrdə Talış mahalı və ya Talış məlikliyi adlanıb. Talış kəndi əvvəllər Dağlıq Qarabağ Muxtar Vilayətində Ağdərə rayonu inzibati ərazisinə aid idi, lakin 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam, Tərtər və Kəlbəcər rayonları arasında bölüşdürülüb. Talış kəndi də Tərtər rayonuna birləşdirilən kəndlərdən biridir.Talış kəndi Qarabağ müharibəsinin əvvəlində Ermənistan ordusu tərəfindən işğal olunub, lakin 1992-ci ilin Ağdərə əməliyyatı zamanı iyunun 16-cı kənd erməni işğalçılarından azad edilib. Lakin 1994-cü ilin aprel ayında hücum edən erməni qüvvələri kəndi yenidən nəzarət altına alıblar. 2 aprel 2016-cı il tarixdə Talış kəndinin ətrafındakı strateji yüksəkliklər Azərbaycan Ordusunun erməni işğalçılarına qarşı keçirdiyi əməliyyat zamanı ermənilərdən tam geri alınıb. 3 oktyabr 2020-ci il tarixində isə Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilib. Bu gün işğaldan azad olunan ərazilərdə, eləcə də Talış kəndində quruculuq, bərpa işləri sürətlə davam edir. Əlbəttə ki, Qarabağın bərpası dünyada analoqu olmayan böyük bir layihədir. Bütün bunlar əhalinin bu yerlərə Böyük Qayıdışının təmin edilməsi üçün atılan addımdır.

***Zümrüd BAYRAMOVA***

# Uşaq və gənclərin fiziki və mənəvi inkişafı əsas prioritetlərdəndir











***Hər bir ölkənin, hər bir cəmiyyətin, xalqın inkişaf göstəricisi, ilk növbədə, uşaq və gənclərin fiziki və mənəvi inkişafından başlayır. Ona görə ki, ölkənin, cəmiyyətin gələcəyi məhz uşaq və gənclərdən, onların fiziki və mənəvi inkişafından asılıdır. "Gənclər bizim gələcəyimizdir", kəlamı ilə Ulu Öndər Heydər Əliyevin bu reallığı, bu həqiqəti daha aydın şəkildə ifadə etməsi təsdiq edir ki, Azərbaycanın öz müstəqilliyini bərpa etdiyi zamandan etibarən gənclər siyasətinə böyük önəm verilib və gənclər siyasətinin əsas istiqamətləri də məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilib.***



Əsası Ulu Öndər tərəfindən qoyulan gənclər siyasəti hazırda cənab Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Belə ki, dövlət rəhbərimiz uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması, ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə mütəmadi olaraq dövlət proqramlarının həyata keçirilməsi istiqamətində sərəncamlar imzalayır və bu kontekstdə mühüm tədbirlər görülür. Eyni zamanda, ölkəmizdə uşaq və gənclərin fiziki və mənəvi inkişafı üçün mühüm addımların atılması, görülən işlər onu deməyə əsas verir ki, bu sahə ölkəmizin əsas prioritetlərindəndir.

Uşaq və gənclərin fiziki və mənəvi inkişafı ilə bağlı qəbul edilən bir sıra sənədlər, məsələn, 2005-2009-cu illəri əhatə edən gənclərlə bağlı Dövlət Proqramı, 2007-ci ilin "Gənclər ili" elan edilməsi, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının təsdiq edilməsi" barədə ölkə rəhbərinin imzaladığı Sərəncam bu sahəyə diqqətin bariz nümunəsidir. Elə bu diqqət və qayğı sayəsində Azərbaycan gəncləri dünyanın müxtəlif ölkələrində sayılb-seçilən, nüfuzlu universitetlərində təhsil alır, təhsilini başa vurduqdan sonra layiqli mütəxəssis olaraq ölkəyə geri dönürlər. Belə gənclərin sayı minlərlədir və bu gün onlar məhz dövlətin qayğısı sayəsində belə bir imkandan yararlana bilirlər.

Onu da qeyd etmək yerinə düşərdi ki, dövlətimizin diqqəti, qayğısı artıq öz bəhrəsini verməkdədir və Azərbaycan gəncliyi artıq beynəlxalq aləmdə seçilməyə başlayıb. Gəncliyimiz dünya gənclər hərəkatının aparıcı qüvvələri arasında da yer almağa iddialıdır. Son illər gənclərin beynəlxalq əməkdaşlığının xeyli genişlənməsi, ikitərəfli və çoxtərəfli əlaqələrin olduğu dövlətlərin sayının artmaqda davam etməsi də təsadüfi deyil. "Dialoq və Əməkdaşlıq Uğrunda" İslam Konfransı Gənclər Forumu, GUAM ölkələrinin Gənclər Forumu, Dünya Türk Gəncləri Birliyi, Dünya Gənc Türk Yazarlar Birliyi və "Böyük İpək Yolu" Beynəlxalq Gənclər İttifaqı kimi beynəlxalq gənlər platformalarının təşəbbüskarı, eləcə də təsisçisinin Azərbaycan gəncliyi olması ölkəmizin apardığı gənclər siyasətinin uğurlu nəticələr verdiyini təsdiq edir və hər birimiz bununla qürur duyuruq.

Sözsüz ki, uşaq və gənclərin fiziki və mənəvi inkişafında ilk rolu ailələr oynayır, çünki cəmiyyətdən öncə onlar ailə tərbiyəsi görürlər. Bu baxımdan, ailələrin öz övladlarına, uşaq və gənclərə doğru, dürüst, sağlam tərbiyə verməsi gərəkir. Sevindirici haldır ki, öz milli-mənəvi dəyərlərinə sadiq qalan Azərbaycan xalqı xüsusilə ailə dəyərlərini hər zaman qoruyub və yenə də qorumaqdadır. Öz ailəsi tərəfindən vətənpərvərlik ruhunda tərbiyə alan uşaq və gənclərimiz cəmiyyətdə də özünü layiqincə təmsil edə bilir və istər fiziki, istərsə də mənəvi cəhətdən inkişafına əsaslı zəmin yaranır. Elə ona görə də milli-mənəvi dəyərlərə söykənən ailə dəyərlərimizin bundan sonra da qorunması çox vacib şərt, vacib məqam hesab olunmaqdadır.

"Sağlam bədəndə sağlam ruh olar", zərb məsəli də bu məqamda tam yerinə düşür. Uşaq və gənclərin fiziki baxımdan inkişafı da əsas şərt hesab olunur. Gənclərimizin fiziki hazırlığı, sağlam böyüməsi önəmli faktordur. Bu baxımdan, dövlətimiz gənclərin fiziki hazırlığına xüsusi diqqət ayırır. Təkcə paytaxt Bakıda deyil, ölkəmizin istənilən bölgəsində idman komplekslərinin tikilib istifadəyə verilməsi bu mənada heç də təsadüfi hesab olunmur. Əvvəla ona görə ki, gənc nəslin daha sağlam, fiziki cəhətdən daha güclü yetişməsi üçün idmanın rolu danılmazdır və məhz bu baxımdan idmanın inkişafına ölkəmizdə xüsusi önəm verilir, diqqət yetirilir. Uşaqların, eləcə də gənclərin hərtərəfli inkişafında idman çox yüksək rol oynadığı kimi, dövlətin gələcəyi, güclü dövlət də məhz fiziki cəhətdən sağlam gəncliyin yetişməsindən asılıdır. Güclü dövlətlərdə idman sahəsinin inkişaf etməsi də görünür təsadüfi deyil. Diqqət etsək görərik ki, iqtisadi cəhətdən ən inkişaf etmiş güclü dövlətlər, həm də idman sahəsində dünyanın qabaqcıl ölkələrindəndir.

Əlbəttə ki, beynəlxalq səviyyəli idman yarışlarında ölkəmizin bayrağının dəfələrlə yüksəyə qaldırılması, idmançılarımızın uğurları, qələbələri, vətənə medalla qayıtmaları onu deməyə əsas verir ki, idman sahəsində böyük yüksəlişə nail olunub. Heç şübhəsiz ki, bütün bunlar səbəbsiz deyil və ölkədə olimpiya idman komplekslərinin, idman zallarının inşası, bir sözlə idman sahəsinə, uşaq və gənclərin fiziki tərbiyəsinə dövlət qayğısı sayəsində reallaşıb. Tamaşaçı tutumu 70 min nəfər olan Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzi, həmçinin, Bakıda idman şəhərciyinin fəaliyyəti bu sahədə görülən irimiqyaslı işlərin, idman sahəsinə dövlət qayğısının bariz nümunəsidir.

Bu gün əminliklə deyə bilərik ki, uşaq və gənclərimizin gələcəyi, uşaq və gənclərin fiziki və mənəvi inkişafı etibarlı əllərdədir. Ona görə etibarlı əllərdədir deyirik ki, əvvəla, xalqımızın milli-mənəvi dəyərlərinə əsaslanan gənclər siyasəti dövlətimiz tərəfindən uğurla davam etdirilir. Digər tərəfdən də uşaq və gənclərin layiqli vətəndaş kimi böyüməsi, təhsil alması, cəmiyyətdə mövqe tutması üçün Azərbaycan dövləti bütün imkan və şəraiti yaradıb. Həta bundan sonra da, gələcəkdə də gənclərin və uşaqların fiziki, intellektual və mənəvi inkişafının təmin edilməsi istiqamətində daha uğurlu addımların atılacağı təkzib edilə bilməz, çünki həqiqətən də gənclər bizim gələcəyimizdir.

***İnam Hacıyev***

## "France 24" telekanalından Türkiyəyə qarşı təxribat




Beləliklə, kanal xüsusi xəbərlərində Türkiyənin bir hissəsini "qondarma Kürdüstan" kimi göstərən xəritədən istifadə edib. Xatırladaq ki, terror təşkilatı olan PKK tərəfdarları ötən ay Fransanın paytaxtı Parisin küçələrini döyüş meydanına çeviriblər.

Fransa uzun müddətdir dəstəklədiyi terror təşkilatının əsl siması ilə qarşılaşsa da, ölkə mətbuatı hələ də PKK-ya dəstək verməkdən çəkinmir. Fransanın "France 24" telekanalı terror təşkilatının orqanı kimi çıxış edərək qalmaqallı xəbər yayıb. Hazırlanan xüsusi xəbərdə Türkiyənin bir hissəsi "qondarma Kürdüstan" kimi göstərilib.

Qeyd edək ki, qalmaqal bununla da bitməyib. Terror təşkilatı PKK-ni yalnız Türkiyə tərəfindən terror təşkilatı kimi göstərib. Və bununla Avropa İttifaqının terror təşkilatları siyahısında da yer aldığına işarə edilməyən əli qanlı terror təşkilatı PKK-ya açıq dəstək verilib.

Qalmaqallı xəbərdə tez-tez bölücü terror təşkilatının quldurbaşının və cır-cındırının görüntülərindən istifadə olunub.

12 dəqiqəlik xüsusi xəbərin Fransada terror təşkilatına reaksiyanın artdığı bir vaxtda PKK tərəfdarlarının Paris küçələrini döyüş meydanına çevirməsindən sonra yayımlanması diqqət çəkib. Fransız mətbuatının belə xəbərlərlə terror təşkilatı PKK-ya qarşı ictimai reaksiyanı azaltmağı hədəflədiyi düşünülür.

# Yeni ildə yeni sosial islahatlar mərhələsində






**_Sosial sahədə atılan mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir. Ölkəmizdə son 19 il ərzində bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb, ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən çox yüksək qarşılanır. Dövlət tərəfindən həyata keçirilən sosialyönlü tədbirlər nəticəsində, vətəndaşların maddi rifah halı yaxşılaşdırılıb, sosial müdafiə və təminat sistemi gücləndirilib, sosial tələbat və ehtiyacları yüksək səviyyədə ödənilib._**

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Ölkəmizdə əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur. Bu və ya digər amillər planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir.

## SOSİAL RİFAH - BÖYÜK NAİLİYYƏTLƏRLƏ MÜŞAYİƏT EDİLƏN İNKİŞAF

raq həyata keçirilib. Göründüyü kimi, bu və ya digər sərəncamlar dövlət siyasətinin sosialyönümlülüyünü, xalqın sosial qayğılarının həllinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə prioritet təşkil etdiyini göstərir. Hər bir cəmiyyətin tərəqqisinin əsas məqsədləri sırasında yer alan sosial rifah və onun daim yüksələn xətt üzrə inkişafına nail olunması müasir dövrdə ən vacib vəzifələrdən biridir. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə, dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrini əhatə edir.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Son 19 ildə Pensiyaçıların, təqaüdçülərin, əlillərin, şəhid ailələrinin, Milli qəhrəmanların ailələrinin, qaçqın və məcburi köçkünlərin, digər sosial






TƏHLİL

Əlbəttə ki, iqtisadi sferada islahatlar prosesi dərinləşdikcə, dövlət vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı üzərinə yeni-yeni öhdəliklər götürür, sosialyönümlü siyasətin miqyasını daha da genişləndirir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verir. Dövlət başçısının minimum aylıq əməkhaqqının artırılması haqqında sərəncamları, tələbələr, magistrlar və doktorantların təqaüdlərdə ciddi artım və s. insan amilinə ayrılan diqqətin bariz nümunəsidir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə ardıcıl olaraq keçmiş qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, onların həyat şəraitinin yaxşılaşdırılması, qayğılarının həllinə yönəlmiş tədbirlər davamlı ola-

kateqoriyaların sosial müdafiəsi ilə bağlı çoxlu sayda hüquqi aktların qüvvəyə minməsi bu sahədə ciddi dəyişikliyə səbəb olmuş oldu. Həmçinin əməkhaqlarının və aztəminatlı ailələrə verilən müavinətlərin artırılması sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilib. Bütün bunlarla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı da qeyd olunmalıdır. Fərmana əsasən, fiziki şəxslərin banklara 10 min ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi qiymətləndirilərək Mərkəzi Bankın elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına manatla ödənildi.



Bu, ikitərəfli addım idi - vətəndaşla bank arasında etimad mühiti bərpa olundu, eyni zamanda, məhkəmə çəkişmələri vətəndaşın xeyrinə həll edildi.

## DÖVLƏTİN YENİ SOSİAL PAKETİ

Yeni ilin ilk günlərində Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı dövlətin yeni sosial paketinin işə başladığını təsdiqləyir. İmzalanan Sənəd bir daha təsdiq edir ki, ölkədə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlir. Sözügedən Sərəncam ölkəmizdə son beş ildə artıq dördüncü sosial islahat paketinin icrasına başlanmasını, yeni ildə yeni sosial islahat mərhələsinə keçidi təmin edir. Sərəncama əsasən, minimum əməkhaqqı 345 manata çatdırıldı və Vahid Tarif Cədvəli üzrə əməkhaqları artırıldı. Minimum pensiya isə 280 manata çatdırılacaq, müavinət və təqaüdlər də artırılacaqdır. Sərəncamla minimum aylıq əməkhaqqı 1 yanvar 2023-cü ildən 15 faiz artırılaraq 300 manatdan 345 manata çatdırılıb. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif maaşları da bir ay müddətində bu Sərəncama uyğunlaşdırılacaq və minimum əməkhaqqı artımı vahid tarif cədvəlinin bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edəcək. Ümumilikdə minimum əməkhaqqı və VTC üzrə işləyənlərin əməkhaqqı artımı 700 min nəfəri əhatə edəcəkdir. Minimum əmək haqqı bu il üçün müəyyən olunan yaşayış minimumunu (246 manat) da 40,2 faiz üstələyir. Yeni Sərəncama əsasən, minimum pensiya 280 manata çatdırılacaq, müavinət və təqaüdlər artırılacaq. Bununla bağlı Nazirlər Kabineti təkliflərini on gün müddətində hazırlayaraq dövlət başçısına təqdim edəcək. Beləliklə, minimum aylıq pensiyanın məbləği də 16,7 faiz artırılaraq 240 manatdan 280 manata çatdırılacaq. Bu artım 100 minədək pensiyaçını əhatə edəcəkdir.



Qeyd edək ki, son 4 ildə sosial sahədə inqilabi islahatların tərkib hissəsi kimi, minimum əməkhaqqı 2,7 dəfə artırılaraq 130 manatdan 345 manata, minimum pensiya 2,5 dəfə artırılaraq 110 manatdan 280 manata çatdırılıb.

Ümumilikdə, bu il sosial ödənişlərdə yeni artımlar üçün əlavə 750 milyon manat vəsait nəzərdə tutulub. Həmin artımlar 1,9 milyon vətəndaşı əhatə edəcəkdir.

## "HƏYAT DAVAM EDİR VƏ BU DAVAMLILIQ İNKİŞAF, TƏRƏQQİ İLƏ MÜŞAYİƏT OLUNANDA, DAHA BÖYÜK RUH YÜKSƏKLİYİ YARADIR"

Həqiqətən də, bu sosial addımlar əhali tərəfindən böyük məmnunluqla qarşılanır. Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Müasir, modern dövlət olaraq tanınan ölkəmiz Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində iqtisadi islahatları reallaşdırır, innovativ inkişafa yol açan dövlətə çevrilib. Əlbəttə ki, həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Prezident İlham Əliyev, çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Ölkəmiz 2003-cü ildən yeni inkişaf mərhələsinə qədəm qoyaraq, dövrün çağırışlarının öhdəsindən yüksək səviyyədə gəlir. Əgər bu gün Azərbaycanın qazandığı biri-birindən əhəmiyyətli uğurlarından bəhs ediriksə, gələcəkdə daha möhtəşəm uğurlardan danışacağıq. Həyat davam edir və bu davamlılıq inkişaf, tərəqqi ilə müşayiət olunanda, daha böyük ruh yüksəkliyi yaradır. Bu uğurlara yol açan əsas amil isə möhkəm təmələ əsaslanan siyasətdir". Bu gün ölkəmiz güclü iqtisadi imkanlara malik dövlətdir və Azərbaycanın iqtisadi qüdrəti, ixrac potensialı ilbəil artır və qeyri-neft sektoru inkişaf edir. Ölkəmizin təşəbbüsü ilə irimiqyaslı qlobal layihələr uğurla icra edilir. Görülən bütün bu işlərin nəticəsində isə, hər bir Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atılır. Bu cür sosial qərarlar davamlı xarakter alıb və bütün bunlar insanların güzəranı daha da yaxşılaşdırır. İmzalanan bu və ya digər sərəncamlar bir daha təsdiqləyir ki, Azərbaycan sosialyönümlü dövlətdir və əhalinin sosial müdafiəsinin gücləndirilməsi və yaxşılaşdırılması istiqamətində dövlət başçısı tərəfindən islahatlar davamlı olaraq reallaşır.Aparılan islahatlar planlı, Azərbaycanın sosial iqtisadi inkişafına, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq gerçəkləşir. Bu bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır.

**Nəzakət ƏLƏDDİNQIZI**

# İşxan Verdyan: "Erməni xalqı öz tarixində ondan dəyərsiz rəhbər görməyib!"




"Günü-gündən Qarabağdakı ermənilərin orada qalmaq şansları sürətlə sıfıra tərəf gedir. Bu, güc yolu ilə köçürülmə olmayacaq, ancaq şəhərin hər addımında Azərbaycan bayrağı dalğalanacaqsa, bütün erməni küçələrinin adları Azərbaycan adları ilə dəyişdiriləcəksə, yol göstəricilərində erməni hərfləri Azərbaycan hərfləri ilə əvəzlənəcəksə və hər şey Azərbaycan dilində olacaqsa - ermənilər öz iradələri ilə orada qalmağı istəməyəcəklər".

SİA xəbər verir ki, bu sözləri erməni bloqeri və ictimai fəalı İşxan Verdyan müsahibələrinin birində deyib. Onun sözlərinə görə, insanlar sadəcə ayağa qalxıb və öz istəkləri ilə gedəcəklər.

Verdyan bu məsələdə Ermənistan hökumətini ittiham edib: "Ermənistan hökuməti məhz buna doğru gətirib-çıxarır. Bütün bunları qəbul etmək və humanitar dialoqa başlamaq yerinə, onlar xarici orduların Azərbaycana daxil olmasına cəhd edirlər. Əgər Qarabağ ermənilərsiz qalacaqsa, bu məsələdə şəxsən Nikol Paşinyan günahkar olacaq. Çünki onun hər şeyi dəyişmək və situasiyanın sükanını öz əllərinə alması şansı var idi, ancaq o bundan istifadə etmədi". İşxan Verdyan Nikol Paşinyanın jurnalist olduğunu xatırladaraq bildirib: "Belə bir bədnam jurnalistin idarəçiliyinin nəticəsi Qarabağın ermənilərsiz, Ermənistanın isə dövlətsiz qalmasını qaçılmaz edir. Erməni xalqı öz tarixində ondan dəyərsiz rəhbər görməyib!", erməni bloqeri və ictimai fəalı bildirib.

***Rövşən***

# Kişilər niyə müəllimlikdən qaçırlar?



"Əzəldən bəri təhsil ocaqlarında qadın pedoqoq və müəllimlər üstünlük təşkil ediblər. Bunun mənfi tərəfləri ilə yanaşı müsbət tərəfləri də var. Çünki hər bir oğlan qadınla münasibəti elə müəllimindən öyrənir". Bu sözləri psixoloq-təlimçi Vüsalə Əmiraslanova deyib.

Onun sözlərinə görə, müəllimi ilə münasibəti necə olursa, gələcəkdə də həyatında olan qadınla münasibəti də o cür olur: "Evdə ana, məktəbdə də müəllim oğlan üçün qadın obrazının formalaşmasına kömək edir. Lakin oğlan uşaqlarının kişi müəllimlər ilə təmasda olması da mütləq vacibdir. Çünki onlardan öz davranışları ilə bağlı nümunə götürürlər. Bu baxımdan həm kişi, həm də qadın müəllimlərin olması yaxşıdır. Amma elə fənlər var ki, onu qadın müəllimlərin tədris etməsi məsləhətlidir".

Psixoloq sözlərinə davam edərək bildirib ki, ümumiyyətlə, müəllimlik elə bir sənətdir ki, onu sevmək, həm maddi, həm də mənəvi cəhətdən qane olmaq lazımdır: "Əgər nədənsə qane olmamaq məsələsi ortaya çıxırsa, bu zaman aqressiya yaranır və dərslər düzgün şəkildə tədris olunmur. Ona görə də kişilər sırf maddiyyata görə müəllimlikdən qaçırlar. Son dövrlər isə bu məsələyə münasibət dəyişib. Yaxşı müəllimin maddiyyatı da yaxşı olur. Ona görə də kişi müəllimlərin də sayı artmağa başlayır. Əlbəttə ki, müəllimin qadın və ya kişi olması uşağı anlamaq, ona fərdi yanaşmağı bacarmaq, onu kollektivdə tərbiyə etmək və uşağın xarakterinə uyğun davranmaq üçün fərq yaratmır. Cinsiyyət əsas rol oynamır. Ümumən götürdükdə həm ailədə, həm də məktəbdə qadınlarla ünsiyyətdə olan oğlanlar daha incəruhlu, həssas olurlar. Lakin bu, onların kişi ruhlu olmağına heç bir təsir göstərmir".

***Ləman Əlizadə***

# Topxana meşəsinin bərpasına başlanıb

***"1988-ci ildə ermənilər tərəfindən qırılan Topxana meşəsinin bərpasına başlanıb". SİA-nın məlumatına görə, bunu Meşələrin İnkişafı Xidmətinin rəisi Xalıqverdi Hüseynov 2022-ci ilin yekunlarına dair keçirilən mətbuat konfransında deyib. O bildirib ki, artıq həmin ərazidə ötən il yeni ağacların əkilməsinə başlanıb:***

"Həmçinin ərazidə ağac toxumları da səpilib. Bu proses davam edəcək və Topxana meşəsi bərpa ediləcək. İlkin olaraq həmin ərazidə palıd, vələs, dağdağan ağacları əkmişik. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları meşədə təhlil aparır. Təhlilin nəticəsindən asılı olaraq aidiyyəti qurumlara təkliflər göndəriləcək.



Nazirlik əməkdaşları tərəfindən həmçinin Laçın və Şuşada da yaşıllıq zolaqlarının salınması prosesi həyata keçirilir. Azad olunan ərazilərdə əkilməsi üçün Türkiyədən 49 min ting gətirilib".

***Yaxın qohumlarımdan biri ilə yeniilqabağı şəhərə çıxmışdıq. Gördüm bu, mağazalarda nəvəsi üçün makyaj dəsti axtarır. Başıma hava gəldi. "Makyaj dəsti-filan nədir? 4 yaşında uşaq nə bilir makyaj nədir?",- dedim. O da cavab verdi ki, oyuncaq makyajdı da, nə olacaq, uşaq oynadacaq.***

# Görəcəksiniz, Diana sizə nə edəcək...



Bilmədin cin məni vurdu, yoxsa mən cini vurdum. Lakin hiss etdim ki, elə bil başıma bir qazan qaynar su tökdülər. Dedim yaxşı, tutaq ki, bunu uşaq istəyib, bəs sən nə ağılla onu alırsan? 4 yaşlı uşağa, lap elə olsun oyuncaq, makyaj dəsti alarlar? O da dedi ki, nəvə şirindir ey, bilmirsən, almamaq olmur. Həm də ondan yana çox ağlayıb. Mən yazıq da nə bilim axı. Dedim o uşaq axı bu makyajı dəstini harada görüb, kimdə görüb, haradan tanıyıb? Bəs nənə nə desə yaxşıdır? O Dianadan öyrənib də, kimdən öyrənəcək?

Mən də nə bilim axı Diana kimdir? Bir az gözlərimi döydüm, sonra "Diana kimdir?",- deyə soruşdum.

Nənə də cavabında dedi ki, bəs "Diana və Roma" cizgi filmi kimi bir şeydir. Nəvəm də meylin salıb onlara. Baxır, baxa bildikcə, gündə də bir şey istəyir. Vallah, açığı fikir məni götürdü, düşündüm ki, bu nə ola bilər ki, uşağa bu qədər təsir edər. Bu anda yadıma düşdü ki, həmin bu uşaq bir qədər əvvəl də anasının geyindirdiyi paltarlarla razılaşmırdı. Həmin bu nənə deyirdi ki, uşaq dayanır dolabının qabağında, özü nə istəyirsə, geyinmək istəyir. Anası müdaxilə edəndə isə bağrı çatlayır.





Nənədən soruşdum ki, bəlkə bu uşağın həmin o paltar məsələsi də Dianadankeçmə idi. Nənə də dedi ki, bəs, əlbəttə: hamısını o Dianadan öyrənir, başımıza oyun açır. Nənə bu oyun açmaq məsələsini, desəm ki, bir qədər qürurla söylədi, xahiş edirəm ki, mənə səmimi şəkildə inanasınız. Nənə sanki uşağın hərəkətləri ilə qürur duyur, ərköyünlüyü ilə fəxr edirdi.

Yaxşı, nə başınızı ağrıdım, makyaj dəstini tapıb aldıq. Həm də neçəyə, nə az, nə çox, 16 manata.

Gəldim evə, dedim yox ey, mən yatmışam fil qulağında, gör dünyada bir nələr baş verir. Qoy görüm bu Diana kimdir axı uşaqlarımızı ta o tərbiyə edir? "You Tube"dan "Diana və Roma"nı tapdım, başladım bir neçə bölümünə baxmağa. Qarşıma çıxan bölüm Diananın "prənses otağı" ilə bağlı idi. Bu 5-6 yaşlı balaca qız çarpayısını bəyənmir, ayaqlarını yerə döyüb yenisini istəyir, atası da yeni çarpayı alır. Lakin qız bunu da bəyənmir, ata gedir başqa birini də alır. Bu dəfə qızcığaz bəyənir. Başlayırlar otağı qurmağa. Süjet xətti belədir ki, Diana atanı qrşısında qulluqçu kimi işlədir. Ata, dolabımı gətir, ata, divanım hanı bəs? Ata kreslom hanı? Ata, yazı stolum hanı? Ata, makyaj dəstimi haraya qoyacağam? Vallah, bir anlıq əsəbimdən az qaldı bağrım çatlasın. Sonda Diana otağını ayağını yerə döyməklə və əmiranə tərzləri ilə istədiyi kimi qurdu.



Baxdığım daha bir bölüm isə Diananın paltar, ayaqqabı seçimi, makyajı ilə bağlı idi. Deməli, bu qızcığaz dayanır dolabının qarşısında, oradan özünə paltar, ayaqqabı, çanta seçir və başlayır geyinməyə. Sonra saçlarını darayır, yaşına uyğun olmayan tərzdə formaya salır. Və başlayır makyaj etməyə. Dolabdan pomada götürür, dodaqlarını boyayır, allıqla yanaqlarını allandırır. Sonra dırnaqlarına lak sürtür. Bütün bunlar bitəndən sonra çantasını götürüb evdən təkbaşına çıxır və küçədə özünəgüvənlə yeriməyi isə adamı daha da təbindən çıxarır.

Bəli, baxdığım bu qədər oldu. Çünki həm əsəbləşdim, həm də yaşımın o vaxtında deyiləm ki, duram saatlarla Diana izləyəm. Hə, elə bu qədərlə də anladım. Anladım ki, həmin o qohum uşağını Diana bax bu hərəkətləri ilə başdan çıxarıb. Lakin nə ana, nə nənə, buna əsla reaksiya verməK istəmirlər, hələ üstəlik uşağın istəklərini yerinə yetirirlər.

Hə, bir də dedim, görüm axı bu Diana kimdir, haralıdır? Axtardım, tapdım və oxudum ki, Diana əslində Ukraynalıdır. 2015-ci ildən "You Tube"da qardaşı ilə birlikdə valideynlərinin dəstəyi sayəsində "youtuberlik" edirlər, hazırda ABŞ-də yaşayırlar və milyonlarla pul qazanırlar. Maraqlıdır, Ukraynalıdır və hazırda ABŞ-də yaşayır. Xeyir ola dedim, nə əcəb Dianagillər ABŞ-ni seçiblər?

Seçiblər də, hansı səbəbdən, nəyə görə, nə üçün, adama deyərlər, sənə nə var, seçiblər... Mənim üçün daha maraqlı olan 2015-ci ildən ötən 8 ildə "Diana və Roma"nın çox yəqin ki, minlərlə qapı açıb, minlərlə uşağa tərbiyə verməleridir. Minlərlə uşaq "Diana və Roma" çoxserialından nələr əxz ediblər, budur, bir nümunəsi ilə göz önündədir.

Bəlli olan isə budur ki, artıq Dianakimilər bizim mentalitetimizin üstündən xətt çəkmədədirlər. Bir düşünək, azərbaycanlı ailələrdə böyüyən uşaqlar ata ilə Diananın danışdığı kimi danışırlarmı? Əsla. Çünki bizdə ailə ənənələri var. Böyüyə hörmət, sayğı var. Ən kiçik yaşlarımızdan atamızdan tələblə yox, xahişlə nə isə istəmişik. Ayaqlarımızı yerə döymək bizə yad olan hərəkətlərdir.

Biz kiçik yaşlarımızdan ta lap gənc yaşlarımızadək analarımızın bizim üçün geyim seçimi ilə razılaşmışıq. Heç vaxt bu məsələdə özbaşına olmamışıq. Qaldı ki, makyaj məsələsinə, bizdə makyaj gənc qız olandan sonra istifadə olunub, uşaqlıqdan deyil.

Bütün bunların fonunda düşünürəm ki, Dianakimilər vasitəsilə beynimizə nələri yeridirlər? Ailəyə-ataanaya sayğısızlığımı? Atanı qarşımızda nökər kimi işlətməyimi? Ayaqlarımızı yerə döyüb istədiyimizə nail olmağımı? Ailəmizin maddi vəziyyətinin necə olmasını düşünmədən istədiyimizi aldırmağımı? Kiçik yaşlardan makyaj etməyimi? Həqiqətən faciədir. Həm də böyük faciə.

Biz mentalitetimizə uyğun olmayanların nə üçün evlərimizə girməsinə icazə veririk? Yəni bunun nə ilə nəticələnəcəyini düşünmək o qədərmi çətindir? Uşaqlarımızı başımızdan etmək üçün onları televizor, kompüter qarşısına əyləşdirib bu cür filmləri açıb qoyuruq qarşılarına, deyirik, qoy baxsın, başı qarışsın. Özümüz də gedirik işimizin ardınca. Telefonu götürüb saatlarla ilişib qalırıq orada. Və yaxud da ev işlərini görüb qurtarmağa can atırıq. Ta bilmirik ki, övladımız nələrə baxır, baxdıqları ilə onun kiçik beyninə nələr təlqin olunur. Bir də o vaxt ayılırıq ki, uşağımızı biz yox, televiziyalar, internet aləmi tərbiyələndirib və qalırıq bizə yad olan bu tərbiyənin qarşısında acız. Əsas bir məsələ isə artıq ortadadır: gecdir məsələsi.

Artıq uşaq əldən gedib. Tərbiyəsi bizim mentalitetimiz, ailə dəyərlərimiz çərçivəsindən çıxıb. Onun özünəməxsus istəkləri yaranıb, arzuları ortalığa çıxıb. İndi gəl, bu istək və arzuları həyata keçir. Təbii ki, övladımız Dianadan öyrəndiklərini bizdən istəyəcək. Ayağını yerı döyüb otağının əşyalarını dəyişdirməyi, istədiyi paltarı geyinməyi, istədiyi əşyanı almağı, yaşına uyğun olmayan hərəkətləri etməyi istəyəcək. Məsələn, ayağını yerə döyüb makyaj dəsti aldırmağa çalışacaq. Axı hər bir ailənin 16 manat verib bu dəsti almağa imkanı çatmır. Hələ bu dəst şəhərimizin ən ucuz bazarında-8-ci kilometr bazarında bu qiymətdir, görün başqa yerlərdə neçə manata təklif olunur. Bütün bunlar bir kənara, axı, 4-5 yaşlı uşaq nə üçün makyaj haqqında nə isə bilməlidir?

Nə isə... Səhərdən bəri danışdıqlarım fonunda bir neçə kəlmə də söyləməklə fikrimi tamamlamaq istəyirəm. Əgər uşaqlarımızın baxdığı cizgi filmlərini əziyyət çəkib birinci özümüz seyr etməsək, istənilən bir sosial şəbəkədən, televiziya kanalından nə isə tapıb onların başının qarışmasına çalışsaq, sonda çox pis nəticələrlə qarşılaşacağıq. Məsələn, kim övladına Diananı izləməyi məsləhət bilibsə, çox yaxın zamanda görəcək Dianının onun övladına nə etdiyini...

Bu cür hadisələrlə çox qarşılaşırıq. Yazırlar, yazırıq, amma heç faydası olmur. Baxırsan ki, bu gün dünənkindən də dəhşətli hadisələr mövcuddur cəmiyyətdə. Belə çıxır ki, biz uşaqlarımızın həyatını, taleyini buraxmışıq, necə deyərlər, Allahın ümidinə, necə olar, olar, deyirik... Belə isə bu Dianaların "töhfəsini" ağız şirinliyi ilə yeyə biləcəksinizmi, bax mən bunu fikirləşirəm.

***Mətanət Məmmədova***

# Xankəndidəki "Leninqrad blokadası" oyunbazlığı ifşa olundu!




*Qarabağ erməniləri yeyib-içib, kef edirlər...*

***Qarabağdakı cinayətkar-separatçı rejimin ekologiyamıza qarşı terrorlarına, o cümlədən, təbii sərvətlərimizin çapılıb-talanmasına qarşı Laçın yolu üzərində ötən ilin dekabr ayının 12-dən başlayan etiraz aksiyası tam sürəti ilə davam edir.***

Lakin maraqlı məqam budur ki, Laçın yolunun üzərindəki dinc ekoaksiyanı az qala "900 günlük Leninqrad blokadası" ilə eyniləşdirməyə cəhd göstərən, bu vasitə ilə ətəklərini aşlarına çəkib "humanitar böhran" barədə dünyaya car çəkən, xarici təşkilatları ölçü götürməyə çağıran erməni tərəfi Xankəndidəki geninə-boluna yeyib-içmək ab-havasını gizlədə bilməyiblər.

Ərzaq mağazalarının "boş" şəkillərini özlərinə və bəlli havadarlarına məxsus KİV səhifələrində yayan Qarabağdakı "əzabkeş" ermənilər sosial şəbəkələrdə Xankəndidə çəkilmiş və paylaşılmış kababları, spirtli içkilərlə dolu masa şəkillərini sildirməyi unu-










dublar.

Yəni fakt budur ki, onlar sanki 1915-ci ildə olduğu kimi, bu dəfə də dünyaya kəf gəlmək istəyirlər. Məhz Azərbaycan blogerlərinin Xankəndidəki erməniləri ifşa etmələrinin ardınca erməni blogerləri Qarabağdakı ermənilərə zəngin ərzaqlarla dolmuş masa şəkillərini paylaşmamağa çağırıblar.

Yəni dünya onların "aclarından öldükləri" görməlidir. Amma necə deyərlər, qatar gedib, çox gecdir - hər şey bütün çılpaqlığı ilə ortalıqdadır!

**Rövşən RƏSULOV**



# Paşinyanın qudurğanlığı davam edir və...

## *Vaxt daralır, çıxış yolu yoxdur!*

***Ermənistanın baş naziri Nikol Paşinyanın regionda sülhün təmin olunması, dhaa dəqiq desək, yeni regional situasiyanın yaradılması prosesinə əngəl yaratmaq cəhdləri davam edir və əslində həmin davamiyyət bir daha sübut edir ki, erməni baş nazirinin qudurğanlıq sindromuna qarşı vaksinasiya olunması tələbi get-gedə daha da artmaqdadır. Əks halda onun mövcud və bəlli vəziyyəti daha da mürəkkəbləşdirməsi qaçılmaz görünməkdədir...***




Beləliklə, o bəyan edib ki, sən demə Azərbaycan Laçın yolunun "blokadaya" (dırnaqlar bizimdir) alınması fonundakı beynəlxalq reaksiyaya əhəmiyyət vermir. Paşinyan bildirib ki, onlar, yəni erməni hakimiyyəti beynəlxalq ictimaiyyətdən, xüsusilə BMT-nin Təhlükəsizlik Şurasından, Qarabağdakı RF sülhməramlı kontingentindən predmetli addımlar gözləyirlər və s.

"Dağlıq Qarabağın" (dırnaqlar bizimdir) blokadasının əsas səbəbi Qarabağ ermənilərinin öz vətənlərində yaşamağa davam etmələridir", deyə sərsəmləməyə davam edən Ermənistanın baş naziri bir az da irəliyə gedərək tələb edib ki, Laçın yolunda "faktların" toplanması üçün regiona beynəlxalq missiya göndərilməlidir. Paşinyan bir daha iddia edib ki, erməni tərəfi üçtərəfli bəyanata və Praqa razılaşmalarına "sadiqdir"...

Beləliklə, Nikol Paşinyanın bu kimi sərsəmləmələri bir daha sübut edir ki, o hələ də Azərbaycana qarşı ərazi iddialarını davam etdirmək niyyətindədir və bunu bir sıra digər amillərlə isbatlamaq olar. Ona görə də keçək əsas mətləbə.

Ya mövcud vəziyyətlə barışın, ya da əlinizə silah götürüb situasiyanı həll etməyə cəhd göstərin, əlbəttə ki, buna da cürətiniz çatarsa!

Birincisi, artıq dəfələrlə vurğulanıb ki, heç kim dünyada ermənilərə nəyi isə boyun olmalı deyil, heç borclu da deyil! Və əgər sizi nə isə qane etmirsə, öz probleminizi özünüz həll etməlisiniz, başqaları sizin problemlərinizi həll etməyəcək. Ya mövcud vəziyyətlə barışın, ya da əlinizə silah götürüb situasiyanı həll etməyə cəhd göstərin, əlbəttə ki, buna da cürətiniz çatarsa!

Qaldı ki, üçüncü tərəflərə müraciət edib probleminizi həll etməyə çağırış səsləndirməyiniz perspektivsizdir, üstəlik alçalma faktıdır. Bu gün qlobal olayların yaşadığı dünyada hər kəs özünə görə cavabdehdir. Ona görə də Paşinyan anlamağa məhkumdur ki, onun təmsil olunduğu millət nə qədər iddia etsə də ki, " dünyanın ilk xristianlarıdırlar", yaxud "dünya nə icad olunubsa onların hamısı ermənilər tərəfindən yaradılıb" və s - bütün bunlar bəşər qarşısında xüsusi əhəmiyyətli millət olmaq anlamını daşıya bilməz. Bəli, bəzi dövlətlər uzağı "bəyanatlar", "narahatlıqlar", "qayğınalnamalar", "çağırışlar" edə bilərlər və bununla da hər şey bitir və həmin dövlətlər əsla ermənilərin yerinə döyüşməyə əsla razılıq verməyəcəklər.

Dünyada elə bir güc, qüvvə yoxdur ki, Azərbaycanı nəyəsə məcbur etsin!

İkincisi, əgər Qarabağdakı ermənilər "ac qalıblarsa", onda bircə dəfə dərindən düşünsünlər və özlərinə sual etsnlər ki, axı onlar kimdirlər? Əgər onlar Azərbaycan vətəndaşlarıdırlarsa söz yox ki, Azərbaycan dövləti onları doyuzduracaq. Yox, əgər Azərbaycan vətəndaşı deyillərsə, onda qapı açıqdır - Laçın yolu üzərindən Gorusa keçə və vətənləri hesab etdikləri Ermənistanda istədikləri qədər qarınlarına qulluq edə bilərlər!

Lakin Paşinyan qudurma sindromundan sağala bilmirsə, dünya qarşısında hay-həşir salıb yenidən "məzlum və əzabkeş erməni" görüntüsünü yaratmağa çalışırsa, bu vasitə ilə pərdə arxasından Azərbaycana qarşı ərazi iddialarını davam edirsə bu zaman bir həqiqəti anlamalıdır - dünyada elə bir güc, qüvvə yoxdur ki, Azərbaycanı nəyəsə məcbur etsin. Dünyanın heç bir qüvvəsi Azərbaycana fikir yürüdə bilməz ki, onun ərazisində yaşayan, lakin qanunlarını, Ana Ysasını qəbul etməyən, üstəlik silahlı olan, habelə təbii resurslarını çapıb-talayan ünsürlər öz arzularını reallaşdırmağa davam etdirsinlər. Sadəcə elə bir qüvvə yoxdur, varsa, buyursun önə çıxsın!

**Rövşən RƏSULOV**

***P.S. Vaxt daralır, çıxış yolu isə yoxdur...***

# Vəfat edən insanın pensiya kapitalı kimə verilir?

***Pensiya kapitalı - müvafiq olaraq fərdi hesabın sığorta hissəsində qeydə alınan və fərdi hesabın yığım hissəsində toplanan vəsaitlərin məbləğidir. Azərbaycanda vətəndaş pensiya yaşına çatmamış vəfat edərsə, onun sığorta hesabında yığılan pensiya kapitalının sonrakı aqibəti necə olur?***

SİA mövzu ilə bağlı araşdırma aparıb. Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam ölkəmizdə son beş ildə artıq dördüncü sosial islahat paketinin icrasına başlanmasını, yeni ildə yeni sosial islahat mərhələsinə keçidi təmin edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, sərəncamla minimum aylıq əməkhaqqı 1 yanvar 2023-cü ildən 15 faiz artırılaraq 300 manatdan 345 manata çatdırılıb.

Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları da bir ay müddətində bu Sərəncama uyğunlaşdırılacaq və minimum əməkhaqqı artımı vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edəcək. Ümumilikdə minimum əməkhaqqı və VTC üzrə işləyənlərin əməkhaqqı artımı 700 min nəfəri əhatə edəcək. Minimum əməkhaqqı bu il üçün müəyyən olunan yaşayış minimumunu (246 manat) da 40,2 faiz üstələyir.

Yeni Sərəncama əsasən, minimum pensiya 280 manata çatdırılacaq, müavinət və təqaüdlər artırılacaq. Bununla bağlı Nazirlər Kabineti təkliflərini on gün müddətində hazırlayaraq dövlət başçısına təqdim edəcək. Beləliklə, minimum aylıq pensiyanın məbləği də 16,7 faiz artırılaraq 240 manatdan 280 manata çatdırılacaq. Bu artım 100 minədək pensiyaçını əhatə edəcək.

Son 4 ildə sosial sahədə inqilabi islahatların tərkib hissəsi kimi, minimum əməkhaqqı 2,7 dəfə artırılaraq 130 manatdan 345 manata, minimum pensiya 2,5 dəfə artırılaraq 110 manatdan 280 manata çatdırılıb. Ümumilikdə bu il sosial ödənişlərdə yeni artımlar üçün əlavə 750 milyon manat vəsait nəzərdə tutulub. Həmin artımlar 1,9 milyon vətəndaşı əhatə edəcək.



**Dövlət Sosial Müdafiə Fondunun (DSMF) İctimaiyyətlə əlaqələr departamentinin müdiri Rəşad Mehdili:** "Sığortaolunan vəfat etdiyi, yaxud həlak olduğu halda ödəmiş olduğu məcburi dövlət sosial sığorta haqlarının müqabilində onun öhdəsində olan ailə üzvlərinə:

- 18 yaşınadək (əyani təhsil alan 23 yaşınadək) övladlarına,
- 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan övladlarına,
- pensiya yaşına çatmış, yaxud orqanizmin funksiyalarının 61-80 faiz və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ata və anasına, ərinə və ya arvadına,
- 8 yaşına çatmamış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə baxan və işləməyən şəxslərə (valideynlərindən biri, əri (arvadı), babası, nənəsi, qardaşı, bacısı) ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilərək ödənilir.

Göründüyü kimi, şəxsin topladığı pensiya kapitalı o, dünyasını dəyişdiyi halda ailə üzvlərinin sosial təminatı üçün istifadə olunur.

Pensiyalarda hər ilin əvvəlində indeksasiya nəticəsində edilən artımlar qeyd edilən bu pensiyalara da şamil olunur".



**Milli Məclisin deputatı**



**Azər Badamov:** "Qanuna görə vəfat edən şəxsin pensiya kapitalı 18 yaşına çatmamış övladlarına, o cümlədən əyani təhsil alan övladların 23 yaşınadək pensiya ödənilir. Bundan əlavə, sığortaolunanın ödəmiş olduğu məcburi dövlət sosial sığorta haqlarının əsasında onun digər ailə üzvləri, yəni pensiya yaşına çatmış arvadı (əri), anası, atası, həmçinin I və ya II dərəcə əlil olmuş arvadı (əri), anası, atası da istifadə etməklə əmək pensiyası ala bilirlər. Yəni şəxsin topladığı pensiya kapitalı, o, vəfat etdikdə də ailə üzvlərinin sosial təminatına yönəldilir. Pensiyalarda edilən artımlar, həmçinin hər ilin əvvəlində indeksasiya nəticəsində edilən artımlar ailə başçısını itirməyə görə ödənilən pensiyalara da şamil olunur.

Pensiyaların artması vətəndaşların sosial rifahının yaxşılaşmasına xidmət edir. Təbii ki, ölkənin iqtisadi gücü olmalıdır ki, mütəmadi olaraq pensiyalar, müavinətlər və əmək haqları artırılsın. Ölkəmizdə hər il demək olar ki, sosial proqramlar icra olunur və əhalinin sosial rifahının yaxşılaşmasına xidmət edən addımlar atılır. Bu da dövlət siyasətimizin təməlində vətəndaşların rifahının dayandığının göstəricisi hesab edirəm".



**İqtisadçı-ekspert Eyyub Kərimli:** "Ümumiyyətlə, ölkə qanunvericiliyinə əsasən, bizdə vəfat edən insanın pensiya kapitalı iki formada müəyyən edilir. Biri var ki, pensiya yaşına çatıb vəfat etmiş insan. Onun pensiya kapitalı varislərinə, ya azyaşlı övladına, ya həyat yoldaşına keçir. O halda ki, həyat yoldaşı pensiyası az olsa, daha çox ölənin pensiyasını seçə bilər və ya əksinə, imtina edə bilər. Amma əgər bu hallar yoxdursa, qanunvericilikdə digər hallar nəzərdə tutulmayıb.

İkincisi də pensiya yaşına çatmayan insanların vəfat etməsi o halda hələ ki, qanunvericilikdə elə bir maddə yoxdur və bunu dövlət belə əsaslandırır ki, həmin vəsait dövlət tərəfindən digər pensiyaçılara ödəniş edilir, daha çox yaşayanlara nəzərdə tutulur.

Bilirsiniz ki, bizdə 77 yaşından çox olanlar üçün o pensiya bölünüb. Yəni, belə nəzərdə tutulub. Lakin beynəlxalq təcrübədə bu hallarda insanın yığdığı kapital varislərinə, vərəsələrinə hansısa formada çatmalıdır (əgər insan pensiya yaşına çatmayaraq vəfat edibdirsə).

Ümumiyyətlə, hazırda pensiya artımı 70-100 min insanı əhatə edəcək, yəni minimal pensiya alanlarımızı, ümumiyyətlə, ölkəmizdə 1 milyon 200 minə yaxın təqaüdçü var. Onların haradasa 70-100 min arası minimal pensiya alır. Yəni 240 alırdı, onlar indi 280 manat alacaq. Bu cür halların ölkə iqtisadiyyatına təsirləri təqaüdçülərin rifahına müsbət təsir göstərəcək. Belə ki, onlar 40 manat əlavə vəsait alacaqlar. Bu, onların tələbatına və tələblərinə müsbət təsir göstərəcək. Ümumiyyətlə, alıcılıq imkanlarını artıracaq və inflyasiyanın təsirlərini az da olsa, hansısa formada kompensasiya edəcək".

*Ayşən Vəli*



Mətanət Məmmədova

## Aksiyanın 26-cı günü, Paşinyanın səsi-ünü

***Artıq 26 gündür ki, azərbaycanlı ekofəallar ermənilər tərəfindən Azərbaycanın ekologiyasına ciddi ziyan vurulması və təbii sərvətlərimizin qanunsuz talan olunmasına qarşı Xankəndi-Laçın yolunda etiraz aksiyası keçirirlər. Lakin hələ də sülhməramlı qüvvələrin kontingentinin rəhbəri ortalıqlarda görünmür. Niyə görünmür, bunun da səbəbi bəllidir. Regionda hər zaman qızışdırıcı mövqedə olanların sayəsində.***

Axı 26 gündür insanlar qışın soyuğu-sazağı qarşısında gecələyib-gündüzləyirlər. Düzdür, biz bu dəyanətə, əzmə sahibik. 44 günlük Vətən müharibəsində də bunları nümayiş etdirdik. Bizim üçün Vətən yolunda, ərazi bütövlüyümüz uğrunda soyuq, sazaq yoxdur. Bütün bunlara haqqımız, ədalətimiz üçün sinə gərmişik, gərəcəyik də. Lakin bu 26 gündə nələr məlum olmadı, nələrlə qarşılaşmadıq? Bizim öz dədə-baba torpaqlarımızda ermənilər sərvətlərimizi dağıdır, talan edir, hələ bir üstəlik bizi haqsız çıxarırlar. Xankəndi-Laçın yolunun bağlanmasında günahkar bizi bilirlər. Bunlar görəsən öz gözlərində tiri nə vaxt görməyi öyrənəcəklər?

Daha sonra, guya ki, Xankəndində ermənilər acından-susuzdan ölürlər. Tamamilə yalandır. Çünki ermənilərdən çox fərqli olaraq bizim insani hisslərimiz buna yol verməz.

Və bu gün eşitdiyimiz daha bir məlumat, Paşinyanın sərsəmliyi. Guya ki, Azərbaycan 10 noyabr Bəyannaməsində üzərinə götürdüyü öhdəliyi pozur, Xankəndi-Laçın yolunu bağlayıb, açmır. Və Paşinyan üzünü tutub beynəlxalq təşkilatlara kömək istəyir. Baxın, bu erməni millətinin taleyinin tapşırıldığı siyasi fiqura baxın. Onun sərsəm-sərsəm danışıqları ilə bu xalqın axırı necə olacaq, buna da Allah kərimdir.

Birincisi, görəsən Paşinyan dünyadan nə isə istəməkdən niyə usanmır və çəkinmir. Həm də o halda ki, artıq hər kəs onu tanıyır və istəklərini qulaq ardına vurur.

İkincisi, 44 günlük Vətən müharibəsindən bu günədək ötən iki ildən artıq zamanda ermənilər 10 noyabr Bəyannaməsində üzərlərinə götürdükləri öhdəliklərə nə zaman əməl etdilər ki, bunun fonunda da Paşinyan azərbaycanlılardan danışır?

Üçüncüsü, çox yəqin ki, Paşinyana Ermənistanda bir dövlət rəsmisi kimi əhəmiyyət verən yoxdur ki, hansısa bir qruplaşma Azərbaycan torpaqlarını talayır, Paşinyan isə onları yerlərində oturda bilmir. Ya bundan "xəbərsizdir", ya da onu saymırlar. Belə olan təqdirdə görəsən Paşinyan yenə nə üçün sərsəmləyir? Ağlına gələni danışmaqla gündəm olmağamı çalışır?

Adama sual verərlər ki, ay adam, sən ermənisən, deyər ki, hə. Bəs belə isə Azərbaycan torpaqlarında nə işin var? Desə ki, mən burada çoxdan yaşayıram. Cavabı belə olar ki, yaxşı edirsən, indiyədək yaşamısan, üstündən 30 il keçib. Artıq zaman da dəyişib, tələb də. Bu torpaqlarda yaşamaq üçün bu ölkənin vətəndaşı olmalısan. Əks təqdirdə üzünü tut öz ölkənə. Burada sənin nə işin var ki...

Hər gün saxta rəqəmləri çəkib-çevirməklə deyil ki... Hamıya erməni xisləti də məlumdur, azərbaycanlı humanistliyi də. Aradabir ün salıb, dünyaya üz tutmaqla iş bitmir, Paşinyan. Əgər yadındadırsa, o dünya bir vaxtlar bizim sismizi də eşitmədi. 44 gündə biz öz gücümüzlə Zəfərimizi qazandıq. Bir beynəlxalq təşkilat yaxına durmadı. Axı onlar sizin tərəfinizdə idilər. Nə etdiniz ki, sizdən üz çevirdilər? Bilirsiniz nə etdiniz? Haqsız olduğunuzu bəyan etdiniz...

Bu gün aksiyanın 26-cı günüdür. 26 gündür ki, mənim xalqımın nümayəndələri soyuğun-sazağın qarşısında haqlarını müdafiə etməyə qalxıblar. Onlar bu haqqı əldə edənədək orada olacaqlar. Buna əmin olun. Papağınız varsa, qoyun qarşınıza, bir fikirləşin, nə danışdığınızı, dünya qarşısına nə kimi tələb qoyduğunuzu fikirləşin bir. Bəlkə özünüzə bir düzəliş vermiş olarsınız. Bu təqdirdə bəxtiniz də gətirmiş olar. Sakitcə oturduğunuz yerdə oturarsınız. Üstəlik ağlınız olsa, regionda yaradılanlardan istifadə haqqınız da olar.

Özünüzə güvənin, Paşinyan, səs-ününüzü dünya ilə bir etməyin. Çünki qonşuluqdaca bizim özümüzün nəyi necə etdiyimizi öz gözlərinizlə gördünüz 44 gündə. Bəlkə siz də bunu bir sınaqdan keçirəsiniz...

# Qalib Xalq, Qətiyyətli Sərkərdə, Müzəffər Ordu

***Hər il Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının ildönümünü ürək ağrısı ilə qeyd edirdik. Ancaq artıq ikinci ildir ki, Silahlı Qüvvələr Gününü müzəffər ordu, qalib xalq kimi qeyd edirik. Ali Baş Komandan, Prezident İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə çıxışı zamanı qürur hissi ilə qeyd edib ki, artıq biz Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik: "Bu, tarixi nailiyyətdir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır. Biz bütün gücümüzü səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib, düşməni məğlub etdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik".Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığını nümayiş etdirərək bütün dünyaya öz gücünü, qüdrətini göstərdi. Ermənistan və havadarları tərəfindən işğal olunmuş torpaqlarımız əsgər və zabitlərimizin qanı və canı bahasına azad edildi.***



*MUXTAR NAĞIYEV, YAP Səbail rayon təşkilatının sədri*



## Ali Baş Komandan İlham Əliyev - "Güclü ordu - güclü dövlət"

Bu Prezident İlham Əliyev tərəfindən son 19 il ərzində həyata keçirilən "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin nəticəsidir. "Biz şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Dəfələrlə demişdim ki, şəhidlərimizin qanı yerdə qalmayacaq. Belə də oldu. İkinci Qarabağ müharibəsi Azərbaycanın tam Qələbəsi ilə nəticələndi",-deyən Ali Baş Komandan söyləyib ki, Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır: "Biz bütün gücümüzü səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib, düşməni məğlub etdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik!... Çünki nəyi demişiksə, onu da etmişik". Dövlət başçısı nəyi deyibsə, onu da edib. Çünki Azərbaycan Prezidentinin sözü imzası qədər qüvvətli və dəyərlidir: "Bir daha demək istəyirəm ki, İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq".

Bir sözlə, Ali Baş Komandan 44 gün davam edən İkinci Vətən müharibəsində nəyi, nə vaxt edəcəyini özü bilirdi. Və bu gün müstəqil Azərbaycanımızın ərazi bütövlüyünü bərpa, sərhədlərimizin toxunulmazlığını təmin edən, üçrəngli bayrağımızı qanı və canı bahasına işğaldan azad edilmiş torpaqlarımızda dalğalandıran Azərbaycan Ordusunu böyük Zəfərə aparan yolun başlanğıcı heç şübhəsiz ki, 1918-ci il iyunun 26-dan başlayır. Ancaq bu yol uzun çəkmədi - 23 aydan sonra, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra qısa bir zaman əzində mövcud olmuş ordumuz da "sovetləşdirmə" prosesinin içərisində əridi, hərb sahəsindəki ənənələrimiz, varəsəlik qırıldı. 1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonra hərb sahənin bərpası prosesi isə başladı. 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi liseyin əsası qoyuldu, azərbaycanlıların keçmiş SSRİ-nin ən nüfuzlu ali hərbi məktəblərində, həm də ən müxtəlif ixtisaslar üzrə təhsil almaları təmin edildi. Və 1993-cü ildə ikinci dəfə xalqın təkidli tələbi ilə iyunnu 15-də siyasi hakimiyyətə müstəqil Azərbaycanın dövlət başçısı kimi hakimiyyətə gəlişindən sonra könüllü dəstələrin, silahlı qrupların dağıntıları üzərindən Azərbaycan Ordusunun formalaşdırılması prosesinə başlanıldı, qısa bir zaman ərzində ölkəmizdə nizami ordu formalaşdırıldı.

## Ulu Öndərin ordu strategiyasının layiqli davamçısı - Ali Baş Komandan İlham Əliyev

Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə başladılan ordu sahəsində aprılan islahatlar ötən 19 ildə Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Və məhz 30 il həsrətində olduğumuz "Qarabağ Azərbaycandır!" şüarımıza 44 gün davam edən İkinci Qarabağ müharibəsindəki şanlı Zəfəri Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğu nəticəsində ordumuzun qüdrəti barədə söylənənlərin praktik təsdiqi oldu və bir daha göstərdi ki, Azərbaycan ordusu regionda ən güclü orduya malik ölkə statusuna malikdir.Dekabrın 10-da keçirilən Azərbaycan Ordusunun Zəfər Paradında Prezident, Ali Baş Komandan bununla bağlı demişdir: "Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi". Bu Qələbə həqiqətlərə də yeni işıq saldı. Belə ki, ordumuz döyüş meydanındakı əməliyyatları ilə dünyanın hərb tarixində yeni nümunələr yaratdı. Bir çox ölkələr bu gün ordumuzun döyüş təcrübəsi ilə yaxından maraqlanmağa başlayıblar. Bununla da Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 18 ildə İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapdı.Bir sözlə, Prezident İlham Əliyev cənablarınnı söylədiyi kimi: "Əminəm ki, bizim bu gün gördüyümüz işlər, o cümlədən ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq".Bəli, Vətən müharibəsi bir daha onu da təsdiq etdi ki, işğalçı dövlət Azərbaycanla hərb meydanında mübarizə aparmağa qadir deyil. İşğal siyasətinin qurbanı olan Ermənistan 30 il əvvəl necə idisə, elə də qalıb və inkişaf baxımından bir addım belə addımlaya bilməyib. Ermənistanın məğlubedilməz ordusunun olması barədə deyilənlər tamamilə əfsanə imiş. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistanın məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi ilk gündən dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi. Çünki qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə - bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Son 19 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək, Ulu Öndərimizin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verməklə bir daha seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri İlham Əliyev bu 19 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu gün dünyanın harasında olmasından, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz dövləti, onun zəfərləri ilə haqlı olaraq qürur duyur, azərbaycanlı olmağı ilə fəxr edir. Bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı. Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaratdı.

Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Dövlət başçısının söylədiyi kimi, son 19 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. Və bu gün Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda da görüb. Ölkəmizin hərbi qüdrətinin nümayişi olan belə paradlarda xalqımız və beynəlxalq ictimaiyyət Azərbaycanın mükəmməl hərbi gücə malik olduğuna şahidlik edib. Təsdiq olunub ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir.

**Ürək fəaliyyətinin dayanması tənəffüsün və şüurun qəfil itirilməsidir. Dərhal müalicə edilməzsə, ürək dayanması ölümlə nəticələnir. Bəzi insanlar ürək tutmasından əvvəl sinə ağrısı, nəfəs darlığı və ya ürəkbulanma hiss edir.**

# Gənc yaşlarda qəfil ürək tutmaların səbəbi nədir?

ARAŞDIRMA

### Ürək dayanmasının əlamətləri və simptomları hansılardır?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Ürək dayanmalarının təxminən 50 faizindən əvvəl heç bir xəbərdarlıq əlaməti yoxdur. Şiddətlənən sinə ağrısı, yorğunluq, şüurun itməsi, başgicəllənmə, nəfəs darlığı, zəiflik və qusma kimi simptomlarla özünü göstərir.

Ürək dayanmasının diaqnozu üçün əsas simptom, bir çox ümumi simptomları olan tənəffüs dayanmasından fərqli olaraq, qan dövranının pozulmasıdır. Ürək dayanmasının əlamətləri və simptomlarına aşağıdakılar daxildir:

- qəfil yıxılma
- nəbzin vurmaması
- nəfəsin dayanması və s.

Ürək dayanmasından əvvəl baş verən əlamətlər və simptomlar bunlardır:

- Xoşagəlməz narahatlıq
- Tənginəfəs
- Zəiflik

Ən çox ürək dayanması ürək döyüntülərində nasazlıq olduqda baş verir. Bu nasazlıq mədəcik taxikardiya (sürətli ürək döyüntüsü), bradikardiya (son dərəcə yavaş ürək döyüntüsü) və ya mədəcik fibrilasiyası (düzgün ürək döyüntüsü, titrəmə və ya çırpınma) kimi anormal ürək ritminə səbəb olur.

Bütün bu nizamsız ürək döyüntüləri həyat üçün təhlükə yaradır. Kardiyomiyopatiya ürək əzələsinin böyüməsinə, qalınlaşmasına və ya sərtliyinə səbəb olur. Bu vaxt yüksək qan təzyiqi, ürək qapağı xəstəliyi və ya digər səbəblər nəticəsində ola bilər.

### Qan damarlarının anomaliyaları

Nadir olsa da, koronar arteriyalarda və aortada anormal qan damarı vəziyyəti baş verə bilər. Güclü fiziki fəaliyyət zamanı ifraz olunan adrenalin bu pozğunluqların olması halında qəfil ürək dayanmasına səbəb ola bilər.

### Ürək dayanmasını necə müalicə etmək olar?

Əgər ürəyində anidən problemlər yaşanmasından şübhələnirsinizsə, ürək-ağciyər reanimasiyasına başlamazdan əvvəl təcili yardıma zəng etməlidir.

İnsanın nəfəs almasını tez yoxlamaq lazımdır, əgər normal nəfəs almırsa ilkin yardım üçün süni nəfəs vermək lazımdır. Ürək xəstəliklərin qarşısının alınması strategiyalarına zərərli vərdişləri tərk etmək, fiziki fəaliyyət və sağlam çəki saxlamaq vacib şərtdir.

Son zamanlarda məlum olan tənəffüs xəstəlikləri, qızdırma və ya mümkün COVID-19 infeksiyası olan xəstələr ümummilli ürək dayanması protokollarına uyğun olaraq müa-



licə olunur.

Ürək insan bədəninin əsas orqanıdır, o, bütün orqan və toxumaları oksigenlə təmin edərək qanı dayanmadan vurur. Gənc yaşlarda qəfil ürək tutmaların səbəbi nədir?

**Həkim kardioloq Jalə Abbasova:** ”Gənc yaşlarda ürək tutmalarının səbəbi 55 yaş üzrə ürək xəstəlikləri hiperlipidemiya, oturaq həyat tərzi, artıq çəki, AHX(arterial hipertaniya xəstəliyi) spirtli içkilər, kimyəvi asılılıqlar, siqaret, narkotik) vasitələri, oynaq və birləşdirici toxuma xəstəlikləri, COVID-19 infeksiyasi və sairədir.

Hərəkət və fiziki iş zamanı tənginəfəslik, yuxusuzluq, tez yorulma, halsızlıq, saç tökülməsi, qarın nahiyəsində ağrılar, depressiya, düzənsiz arterial təzyiq-anidən arterial təzyiqin yüksəlməsi və anidən arterial təzyiqin enməsi kimi hallar baş verir. Baş gicəllənmə, tez -tez ürək döyüntüləri, ürək və damar problemlərindən xəbər verir. Qəfləti ürək tutmaları ən çox gecə vaxtı baş verir. Bunun səbəbi yatarkən insan organizmində maddələr mübadiləsi ciddi şəkildə zəifləyir, ona görə də yatmazdan əvvəl yeyilən kiçik loxma belə ürək və mədə üçün böyük bir yükdür. Bu isə qan şəkəri və lipid mübadiləsinin yuxuda ikən arzuolunmaz şəkildə pozulmasına gətirib çıxarır. Bu da, öz növbəsində, damarların tutulmasına səbəb olur. Əgər damarlarda xəbərimiz olmadan hər hansı bir tromb varsa, təzyiqin yüksəlməsinə bağlı olaraq yuxuda olduqda bu tromb həyat üçün vacib orqanlara miqrasiya edib onların infarktına gətirib cıxarır. Bu faktor da qəfləti ürək dayanmalarının sübutudur”.

***Havar Şəfiyeva***

# “The Telegraph” yazır: Britaniyanın SEPAH planı



***“The Telegraph" qəzetində "Böyük Britaniya axır ki, İrandan gələn təhlükənin reallığını dərk edir" başlıqlı məqalə dərc olunub. Məqalənin müəllifi qəzetin redaktoru Kon Kaflindir. Həmin məqalənin ingiliscədən tərcüməsini təqdim edirik. Britaniya hökuməti İran rejiminin əsas dayağı sayılan İnqilab Keşikçiləri Korpusunu (SEPAH) terror təşkilatı elan etməyi planlaşdırır. Çox təqdirəlayiq hadisədir. Necə deyərlər, gec olar, güc olar.***

1979-cu ilin islam inqilabından sonra yaradılmış SEPAH ortaya çıxdığı gündən İran rejiminin xarici ölkələrə nüfuz etmək üçün əl atdığı bədxah planlarda mühüm rol oynamaqdadır.

Son 40 ildə SEPAH dünyanın müxtəlif yerlərində ən dəhşətli terror aktlarında iştirak edib. Hansını deyəsən? 1983-cü ildə Beyrutda terrorçu kamikadzenin idarə etdiyi yük maşını ABŞ və Fransa hərbçilərinin bazasına soxularaq partlayış törədib, 307 nəfər həlak olub. 1994-cü ildə Buenos-Ayresdə yəhudi icması mərkəzi bombalanıb, 86 nəfər qətlə yetirilib.

Bu yaxınlarda Britaniya hərbçiləri İraq və Əfqanıstandakı hərbi əməliyyatlar zamanı SEPAH-ın törətdiyi vəhşiliklərə dair birinci əldən məlumat alıblar. Məlumatı ötürənlər SEPAH-ın Qüds qanadının dəstəklədiyi üsyançılara qarşı keçirilən əmliyyatlarda dolayısıyla iştirak etmiş şəxslərdir.

SEPAH-ın Qüds qüvvələrinə İraqda yüzlərlə amerikalı hərbçinin qətlinə görə məsuliyyət daşıdığı bildirilən Qasım Süleymani rəhbərlik edib. Qasım Süleymani 2020-ci il yanvarın 3-də birbaşa ABŞ prezidenti Donald Trampın sanksiyalaşdırdığı əməliyyatla aradan götürülüb. O, İraq ərazisində ABŞ-ın pilotsuz uçuş aparatı ilə vurulub.

SEPAH-ın zorakılığı təkcə xarici ölkələrlə məhdudlaşmır. İslam inqilabının keşikçisi kimi SEPAH İranda hökumət əleyhinə nümayişlərin qəddarcasına yatırılması əməlinin də başında durur. Son aylar onun bu əməllərinə yüzlərlə insan, o cümlədən neçə-neçə qadın, uşaq qurban gedib. 18 minə yaxın iranlı isə rejimin son aylardakı etiraz aksiyalarına qarşı həyata keçirdiyi divan tutma əməliyyatı zamanı həbs düşərgələrinə salınıb.

Bayram günlərində Nazənin Zaqari-Ratkliff BBC-nin ”Today” proqramının qonağı olub. O, əslən iranlıdır, Britaniya vətəndaşıdır. 2016-sı ildə İranda həbs edilib, 2022-ci ildə azadlığa çıxaraq Britaniyaya qayıdıb. Nazənin Zaqari-Ratkliff açıqlamasında SEPAH-ın həbs etdiyi siyasi fəalların saxlandığı bədnam Evin həbsxanasında keçirdiyi günləri təsirli şəkildə təsvir edib. Nazənin həbsinin ilk altı ayında təkadamlıq kamerada saxlanıb. İran hökuməti, nəhayət, onun saxlanma şəraitini yüngülləşdirmək qərarına gələndə Nazənin yalnız dövlət təbliğatı aparan kanalın və idman kanalının quraşdırıldığı televizorla təmin olunub.

Son 40 ildə törətdiyi cinayətlər yetərincə sənədləşdirilsə də, Britaniya hökuməti SEPAH-ı ”Əl-Qaidə” və İŞİD kimi qruplaşmalara bərabər tutmaq istəməyib.

2019-cu ildə Donald Trampın prezidentliyi dövründə Ağ ev SEPAH-ı terror təşkilatları siyahısına salıb. Britaniya hökuməti isə Tehranla birbaşa qarşıdurmadan yayınaraq ayətullahlarla konstruktiv dialoq qurmağın mümkünlüyünə ümid bəsləyib. London hesab edib ki, konstruktiv dialoq İran rejiminin Qərbə aqressiyasını azalda bilər. Bu sadəlövh yanaşma heç də yeni deyil. 1980-ci illərdə - Terri Ueyt və Con Makkarti kimi insanların Livanın Beqaa vadisində rütubətli kameralarda batareyalara zəncirlənmiş vəziyyətdə saxlandığı bir vaxtda o dövrün xarici işlər naziri Cefri Hau mənə demişdi ki, İran rejimindəki mötədil qanad üçün dialoq kanalını açıq saxlamaq gərəkdir. Sonradan məlum oldu ki, girovlarla bağlı böhranın baş qaldırmasında həmin ”mötədillər” mühüm rol oynayıbmış.

”The Telegraph” qəzeti bugünlərdə Britaniya hökumətinin SEPAH-ı terror təşkilatı elan etmək məsələsini ciddi şəkildə nəzərdən keçirdiyi haqda məlumat əldə edib. Gec də olsa, bu addımın atılması müsbət haldır. Görünür, SEPAH-ın Britaniya ərazisində terror planlarının sayının çoxalması, nəhayət, Londonu bu təşkilatı olduğu kimi qəbul etmək məcburiyyətində qoyub. Britaniya hərbi kəşfiyyatının (Mİ-5) rəhbəri Ken Makkallumun sözlərinə görə, son bir ildə ölkədə azı 10 dəfə terror həyata keçirmək - qətllər törətmək, adam oğurlamaq planlaşdırılıb. Hədəflər arasında Londonda fars dilində fəaliyyət göstərən televiziya da olub. Bu televiziyanın iki jurnalistini öldürmək planını pozmaq üçün Britaniya hökuməti kanalı daimi polis mühafizəsi ilə təmin edib.

Böyük Britaniyada terror niyyətlərinin genişlənməsini İranın Rusiya-Ukrayna müharibəsində fəallaşması ilə də əlaqələndirmək olar. Ruslar Ukraynada mühüm obyektlərə hücum etmək üçün İran istehsalı olan dronlardan yararlanırlar. İranda dron istehsalı isə SEPAH-ın himayəsi altında reallaşdırılır. ABŞ Maliyyə Nazirliyinin SEPAH-la əlaqəli İran şirkətlərinə sanksiyalar tətbiq etməsinə də bu səbəb olub.

İndi Böyük Britaniya SEPAH-ı məsuliyyətə cəlb etməyə hazır görünür. Bu, İran üçün ciddi siqnal olacaq. Tehran başa düşəcək ki, Qərb daha onun çirkin əməllərinə göz yummaq fikrində deyil.

# “Rusiya və Britaniya BMT-də ermənipərəst fransız qətnaməsinin qarşısını aldı”



*Rusiyalı ekspert: Azərbaycanla Ermənistan nizamlanmasında Rusiyanın rolu və Ukraynadakı xüsusi hərbi əməliyyatın nəticəsi həlledici olacaq*

Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov İrəvanın Ermənistan-Azərbaycan nizamlanmasında siyasəti və vəziyyətin 2023-cü ildə hansı ssenarilər üzrə ionkişaf edə biləcəyi haqqda ”Moskva-Baku” portalına müsahibəsində maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Dmitri Vladimiroviç, Ermənistanın Rusiyanı tənqid etməkdə davam etməsi diqqət çəkir. Hökumətin iclasında Nikol Paşinyan bəyan edib ki, Ermənistan Rusiyanın Laçın dəhlizindəki vəziyyətlə bağlı daha fəal olmasını gözləyir, yenə də Azərbaycanın Qarabağ ermənilərinə qarşı planlaşdırdığı hansısa ”etnik təmizləmə” ilə bağlı qorxuducu tezislər səsləndirib. Ermənistanın baş nazirinin yeni il çıxışından müttəfiqləri tənqid edən və Ermənistanın beynəlxalq strukturlardan dəstəyini yüksək qiymətləndirən bəyanatlarını da bura əlavə etsək, hansı nəticə çıxarmaq olar?**

- Mən deyərdim ki, Ermənistanın yeni ilə bu cür siyasi yanaşmalar köçürməsi ilk növbədə, Fransa və ABŞ-ın həyata keçirdiyi siyasətin davamıdır və keçən ilin sonunda bu daha da gücləndi. Buna misal olaraq dekabrın 31-də BMT Təhlükəsizlik Şurasında Laçın yolu ilə bağlı anti-Azərbaycan qətnaməsinin qəbul edilməsi cəhdini göstərmək olar, Fransanın hə və sonda Rusiya və nə qədər qəribə olsa da, Böyük Britaniya tərəfindən düzəldildi. Makron üçün vəziyyət yenidən çirkinləşdio, yenə uduzdu. Öz avropalı ”qardaşları” da onun bu ideyasını dəstəkləmədilər.

İstənilən halda, bu cəhdlər Ermənistan mətbuatında tam gücü ilə oynanılacaq və Ermənistan hakimiyyətinin açıqlamaları ilə əsas dəstəyin Fransadan gəldiyi, Rusiyanın heç bir iş görmədiyi nümayiş etdiriləcək. Fransa bu il də anti-Azərbaycan qətnamələri və müraciətləri ilə çıxış etməyə davam edəcək. Düzdür, Parislə Bakı arasında münasibətlərin daha da pisləşməsi və Cənubi Qafqaz siyasətində Fransanın real simasını nümayiş etdirməkdən başqa heç bir nəticəsi olmayacaq. Təbii ki, Paşinyan Fransanın bu cür hərəkətlərinə reaksiya verəcək. Onun üçün bu, onun Ermənistan daxilində əkməkdə davam edəcəyi və bununla da erməni cəmiyyətində ölkənin əsas müttəfiqinin Rusiya deyil, Avropa İttifaqı olduğu hissini yaradacağı və bundan sonra da NATO strukturları ilə qarşılıqlı əlaqələrin gücləndirilməsi məntiqi ilə informasiya fonudur. Aydındır ki, Ermənistanın NATO-ya daxil olması mümkün deyil. Amma Ermənistan cəmiyyətində Qərbə sıçrayışa yol açmaq üçün informasiya emalı gedir.

**- Yəni Qərb bu il də Ermənistanı marionet kimi idarə etmək cəhdlərini davam etdirəcək?**

- Bəli. Xatırlayırıq ki, ABŞ-ın xaricdəki ən böyük səfirliyi Ermənistanda yerləşir. Paşinyan hakimiyyətə Soros Fondunun sponsorluq etdiyi QHT-lərin dəstəyi ilə gəlib. Heç kim bunu gizlətməyib. Deməli, Ermənistan cəmiyyətinin emalı fəal şəkildə gedir, Ermənistana kimin dost, kimin düşmən olması barədə yalan fikirlər becərilir. Onlar göstərmək istəyirlər ki, Rusiya Ermənistanın xeyrini istəmir. Təbii ki, bu, qətiyyən belə deyil, çünki Rusiya Federasiyası Cənubi Qafqazda sülhün tam və qəti şəkildə bərqərar olmasına, qarşılıqlı faydalı əməkdaşlığa çalışır ki, bu da təbii ki, Ermənistanı iqtisadi cəhətdən də inkişaf etdirəcək.

Ermənistan bu məntiqlə hərəkət edəcək ki, ordumuz indiki vəziyyətdə ikən, biz KTMT-yə, Aİ-yə daxil olduğumuz halda Cənubi Qafqazdakı vəziyyətdən qalib gələ bilmərik, gəlin NATO standartlarına keçək, sonra birdən-birə uğur qazanaq. Bunların hamısı nağıldır, təbii ki, bundan yaxşı heç nə gəlməyəcək. Amma bu, efirə verilə bilən, inandırılacaq nağıldır. Paşinyan isə indi bunu edir. Ermənistan öz zabitlərini Qərbə təhsil almağa göndərəcək. Birləşmiş Ştatlar, Avropa üçün bu gözəldir, çünki bu, yeni pullar, yeni sifarişlər, xeyli bazar deməkdir- bütün ölkəni onun hesabına yenidən silahlandırmaq.

**- Bu yaxınlarda Ermənistan mətbuatında ABŞ və Fransanın Paşinyana KTMT-dən çıxmamağı deməsi, Vaşinqton və Parisin hərbi ssenari baş verəcəyi təqdirdə Ermənistanı qoruya bilməyəcəyini izah etməsi barədə məlumatlar var idi...**

- Heç kim Ermənistan üçün döyüşməyəcək. Qərb ölkələri üçün bu, hətta logistika nöqteyi-nəzərindən də çətindir- onlar döyüşə hərbçiləri, texnikanı hansı marşrutlarla göndərəcəklər. Amma Ermənistanı siyasi cəhətdən yenidən formatlaşdırmaq, dediyim kimi, mümkündür. Məqsəd budur. Söhbət Ermənistanın sabah KTMT-dən çıxmasından getmir. Məsələ ondadır ki, bu, mərhələli prosesdir. Və bu, anti-Rusiya əhval-ruhiyyəsinin formalaşması hesabına baş verir. Hakimiyyətin rəsmi açıqlamaları, Rusiya əleyhinə nümayişlər. Məqsəd anti-Rusiya əhvalını o dərəcədə qızışdırmaqdır ki, istənilən erməni siyasətçisi ancaq bu yolla hərəkət etsin. Çünki cəmiyyətdən belə bir xahiş olacaq. Biz Ukraynanın nümunəsini görürük- o zaman ki, yaxın vaxtlara qədər Rusiyaya münasibətdə qardaş dövlət, həm Rusiyada, həm də Ukraynada yaşayan çoxlu sayda qarışıq ailələr, iqtisadiyyatı tamamilə Rusiya ilə münasibətlərə bağlı olan bir dövlət, postsovet boşluq və hər şey yenidən formatlaşdırılıb. Ermənistan nə ilə fərqlənir? Eyni şəkildə yenidən formatlana bilər. Ukraynanın öz faşist cinayətkarları var ki, onlar xüsusilə indi öz milli qəhrəmanları kimi yozulur, Ermənistanın da öz faşist cinayətkarları var, onlar da öz milli qəhrəmanları kimi yozulur. İstənilən halda bu məntiqdə hər şey daha da inkişaf etdirilə bilər. Və onları Qərb kuklaları kimi hazırlayırlar.

**- Ermənistanı Rusiyadan qoparmaq nə dərəcədə realdır?**

- Hazırda qeyri-realdır. 2008 və ya 2012-ci illərdə olduğu kimi, Ukrayna ilə də bunu etmək qeyri-real idi. Amma indi işə yaradı. Heç bir halda mən Kassandra kimi çıxış etmirəm və hər şeyin mütləq yeganə yol olacağını demirəm, yox. Bu, artıq başlanmış və maliyyələşdirilən layihədir. Bu layihə iflas ola da bilər, çünki Soros tərəfindən maliyyələşdirilən bir çox digər layihələr iflasa uğrayıb. Bildiyiniz kimi, bir vaxtlar özlərini rahat hiss etdikləri Soros layihələri bir sıra ölkələrdən qovuldu. Bu, Ermənistanda da ola bilər. Amma hələlik bu layihə Ermənistanda təbliğ olunur.

**- Bayaq dedik ki, 2023-cü ilin dünya üçün dönüş nöqtəsi olacağı proqnozlaşdırılır. Cənubi Qafqazda, Ermənistan-Azərbaycan həllində hansı ssenarilər mümkündür?**

- Ciddi hərbi ssenari çətin ki mümkün olsun, axı Ermənistan 44 günlük müharibədə məğlubiyyət şokundan hələ də çıxmayıb. Ona görə də, xüsusilə Azərbaycan ərazisində, Laçın dəhlizində yeni müharibə ssenarisi real deyil. Ermənistan tərəfindən təxribat törətmək və KTMT-ni istənilən potensial münaqişəyə cəlb etmək cəhdləri davam edəcək. Amma biz dəfələrlə görmüşük ki, KTMT bitərəf mövqe tutur və Ermənistanın təxribatlarına boyun əymir. Ümumiyyətlə, 2023-cü ildə Ermənistan-Azərbaycan nizamlanması prosesində, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanması istiqamətində ciddi irəliləyiş olmasa, çətin ki, nəsə dəyişsin. Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasında vəziyyətin hərəkəti üçün bir çox cəhətdən Rusiyanın rolu və xüsusi hərbi əməliyyatın nəticəsi həlledici olacaq. Əgər Rusiya Ukraynadakı xüsusi hərbi əməliyyatda özü üçün müsbət nəticələr göstərə bilsə, o zaman diqqətini Cənubi Qafqaza yönəldə biləcək. Ukraynada Rusiya üçün müsbət ssenari yaranarsa, Ermənistanın təxribatlarını dayandırıb sülh müqaviləsi imzalamalı, Zəngəzur dəhlizini açmalı, nəqliyyat-logistika əlaqələri yaratmalı olacaq. Dəfələrlə deyilib ki, bu, Ermənistan üçün əsaslı surətdə faydalıdır, çünki bu, sərhədlərin açılmasını, investisiya mühitinin yaxşılaşdırılmasını, yeni iş yerlərinin, əhali üçün yeni imkanların yaradılmasını nəzərdə tutur. Lakin bütün bunlar Rusiyanın prosesdə fəal iştirakı və Ukrayna əməliyyatının Rusiya üçün müsbət ssenarisi ilə bağlıdır.

**- Bəs Türkiyə və çoxqütblü dünyanın qurulmasında, Böyük Avrasiyanın inkişafında maraqlı olan digər dövlətlər Bakı ilə İrəvan arasında tezliklə normallaşmanın tərəfdarı olacaqmı?**

- Türkiyə də Rusiya kimi Cənubi Qafqazın sülh şəraitində olmasında maraqlıdır ki, regionda iqtisadi əməkdaşlıq, ticarət, logistika əlaqələrinin inkişafı üçün müsbət şərait yaradılsın. Rusiyanın cənub hissəsindən, Azərbaycandan keçməklə, daha sonra Zəngəzur dəhlizi ilə Ermənistan ərazisindən keçməklə Naxçıvana, oradan da Türkiyəyə, Aralıq dənizi limanlarına dəhliz əldə etmək sərfəlidir. Eyni şəkildə əks istiqamətdə - Xəzər dənizi vasitəsilə Orta Asiyaya doğru Türkiyə üçün faydalıdır. Bu, hər iki istiqamətdə işləyəcək bir logistik əlaqədir. Ona görə də Türkiyə də Rusiya kimi sülh müqaviləsinin ən qısa zamanda imzalanmasında və hər şeyin 2020-ci ildə üçtərəfli bəyanatla planlaşdırıldığı kimi işləməsində maraqlıdır.

Böyük Avrasiya Tərəfdaşlığının tərəfdarlarının hamısı Cənubi Qafqazda tezliklə yekun nizamlanmada maraqlıdır. Ona görə də biz qarşıdurma görürük: Böyük Avrasiyanın uğurlu inkişafında maraqlı olanlar da var, buna köklü şəkildə qarşı çıxanlar da. Qərb Böyük Avrasiyada xaos səpməkdə maraqlıdır, bu, ənənəvi siyasətdir- xaos səpmək, sonra isə onu idarə etməyə çalışmaqdır. Biz artıq gördük ki, Qərb Ukrayna ilə bağlı Minsk razılaşmaları ilə bağlı tam eyni mövqedən çıxış edir. İndi Almaniya və Fransa etiraf etdilər ki, Minsk razılaşmaları imzalanandan bəri bu qədər illər ərzində məqsədləri onları həyata keçirmək deyil, zamanla oynamaq idi. Cənubi Qafqazda da Avropanın təklifi tam eynidir- gəlin boş yerə vaxt itirək, nəsə danışaq və bu müddət ərzində Ermənistanı yenidən silahlandırmağa, qoşunlarımızı bölgəyə yeritməyə çalışacaq.




İstənilən halda Rusiya KTMT, MDB, Aİİ institutları vasitəsilə Ermənistanı stimullaşdırmağa, sülhməramlı mövqe tutmağa çalışacaq. Rusiya bütün bu qurumlardan Cənubi Qafqazda sülh siyasətini həyata keçirmək üçün istifadə edəcək və yenə də 2020-ci il qərarlarının icrasına nail olacaq.

**- 2023-cü ildə Azərbaycan özünü necə aparacaq? Laçın dəhlizindəki vəziyyət, Bakıdan son bir siqnaldır, (baxmayaraq ki, Ermənistan bundan siyasi və təbliğat məqsədləri üçün istifadə edir) səbrimiz tükənir.**

- Laçın yolu ətrafında yaranmış vəziyyətdə erməni separatçılarının rəhbərləri öz dağıdıcı fəaliyyətləri ilə erməni cəmiyyətinin daxilində xal qazanmağa, erməni əhalisi arasında ədalətsizlik hissini, qisasçılıq həvəsini qızışdırmağa çalışırlar. Və bu hərəkətləri ilə, o cümlədən Paşinyana qarşı oynayırlar. Bu, çox mürəkkəb erməni oyunudur. Paşinyan 100% sabitliyini hiss etmir. Onun yerini açıq şəkildə hədəfləyən qüvvələr meydana çıxdı. Laçın yolu ətrafında baş verənlər çox mürəkkəb oyun birləşmələridir: Avropa İttifaqı və Ermənistan, ən yaxın qonşuları olan Ermənistan, indiki Ermənistan rəhbərliyinə qarşı separatçılar.

Azərbaycan özünü əvvəlki qaydada aparacaq- sakit, böyük təmkinlə, siyasi səriştəli, siyasi təzyiqlərin getdikcə artması ilə.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
Səs
7 yanvar
2023-cü il

# Avtobuslar qış mövsümünə hazırdır?




***“Müntəzəm sərnişindaşıma xidməti göstərən hüquqi və fiziki şəxslərin istismarında olan avtobuslarda payız-qış mövsümünə keçidlə bağlı müvafiq hazırlıq işlərinin görülməsi həmin şəxslər tərəfindən həyata keçirilir.***

Buna baxmayaraq, Bakı Şəhər İcra Hakimiyyəti başçısının ”Dövlət müəssisələri, idarə və təşkilatlar tərəfindən 2022-2023-cü illəri əhatə edən payız-qış mövsümünə hazırlıq işlərinin təşkil və təmin edilməsi” haqqında Sərəncamına uyğun olaraq Bakı Nəqliyyat Agentliyi tərəfindən hüquqi və fiziki şəxslərə payız-qış mövsümünə keçidlə əlaqədar marşrutlar üzrə hərəkət edən avtobuslarda və avtoparklarda zəruri tədbirlərin görülməsi ilə bağlı xəbərdarlıq məktubu göndərilmişdir”. Bu sözləri S?A-nın sorğusuna cavab olaraq Sərnişindaşıma fəaliyyətinin tənzimlənməsi şöbəsinin müdiri Vüqar Məmmədzadə deyib.

O, sözlərinə belə davam edib: ”Həmin xəbərdalıq məktubunda sərnişinlərə göstərilən xidmət keyfiyyətinin yüksəldilməsi, eyni zamanda sərnişindaşımada təhlükəsizliyin və fasiləsizliyin təmin edilməsi üçün aşağıda sadalanan profilaktik tədbirlər həyata keçirilməsi göstərilmişdir:

- İş planının qurulması (müəssisəsinin işçi heyətinin soyuq hava şəraitində işin vaxtında təşkil olunmasına istiqamətlənir);
- Sürücülərin və texniki xidmət personalının qış mövsümündə avtomobillərin istismarına dair təlimatlandırılması;
- Avtoparklarda mövsümi dəyişikliklərlə əlaqədar müvafiq hazırlıqların görülməsi;
- Avtobuslara mövsümi texniki xidmətin göstərilməsi və dövrü texniki xidmət vaxtının təyin edilməsi;
- Avtonəqliyyat vasitələrinin müvafiq maddi-texniki baza ilə təmin olunması;
- Şinlərin mövsümə uyğun təchiz olunması (protektor naxışlarının qalmış hündürlüyü 2 mm-dən az olmamalıdır);
- Akkumulyator batareyalarında (AKB) nəzarət - məşqlərin keçirilməsi ;
- Təkər zəncirlərinin hazırlanması;
- Alın şüşəsinin silgəclərinin yenilənməsi;
- Avtomobillərin istilik və daxili qızdırıcı sistemləri, dərman qutuları, odsöndürən balonları, yol alət dəstləri və dartqı avadanlıqları ilə təmin edilməsi;
- Avtonəqliyyat vasitələrində pəncərələrin, havalandırma yerlərinin (lyukların) və qapıların çərçivə ilə birləşən plastik araqatı (rezin) hissələrin davamlılığının təmin edilməsi;
- Avtobuslarda daxili temperaturun normal istilik dərəcəsindən aşağı olmaması;
- Maye səviyyəsinin (şüşə yuyucu, soyutma, əyləc və hidravlik sükan mayeləri) nəqliyyat vasitəsinin təlimatına uyğun dəyişdirilməsi;
- Payız-qış mövsümünə keçid ilə əlaqədar əyləclərin yoxlanılması (yolların qar və buzdan sürüşkən olma potensialına sahib olduğu üçün soyuq hava əyləc problemini artırır).

Eyni zamanda, sürücülərə mütəmadi olaraq sürüşmə ehtimalı olan yollarda, buzlu döngələrdə, körpü və yol ötürücülərində daha diqqətli olmaları, hərəkət sürətinə nəzarət etmələri, baş verə biləcək yol-nəqliyyat hadisələri ilə bağlı risklərin daha çox olmasını nəzərə alaraq, bu istiqamətdə tədbirlər görülməsinin, həmçinin maarifləndirmə işləri aparılmasının zəruriliyi vurğulanmışdır”.

*Ayşən Vəli*

# “Mançester Yunayted” yeni qapıçı transfer etdi



“Mançester Yunayted” klubu heyətinə yeni qapıçı cəlb edib. ”Qırmızı şeytanlar”ın rəsmi saytında yer alan məlumatda deyilir ki, ”Kristal Palas”dan Cek Batlend icarəyə götürülüb. İngiltərəli qolkiperin müqaviləsi mövsümün sonuna qədər nəzərdə tutulub. Qeyd edək ki, Batlend bu mövsüm ”Kristal Palas”ın heyətində meydana çıxmayıb.

# Metroda baş verən texniki problemlərin səbəbi açıqlandı

***"Qeyd etmək lazımdır ki, vaqonlarda, əsasən, metroda sıxlıq olanda bir qayda olaraq qapılarla bağlı problemlər yaranır. Son illərin statistikasına nəzər yetirsək, ildən-ilə bu məsələ ilə bağlı nasazlıqların qeydə alınması halları kifayət qədər azalıb. Bunun əsas səbəbi vaqonlar təmir olunarkən onların qapı sistemlərinin müasir idarəetmə və avadanlıqlarla təchiz olunmasıdır". Bu sözləri SİA-ya açıqlamasında"Bakı Metropoliteni"nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.***



Onun sözlərinə görə, qapıların açılıb-bağlanması daha rəvan və təzyiqə davamlıdır: ”Bu məsələlərə xüsusi diqqət yetirildiyindən, xüsusən də vaqonların orta və əsaslı təmiri nəticəsində nasazlıqların sayı azalıb. Nümunə üçün deyə bilərik ki, sonuncu dəfə belə bir hadisə noyabr ayında baş vermişdi. Sentyabrın 15-dən sonra pandemiya dövründən qalan müvafiq məhdudiyyətlərin aradan qaldırılması, tədris prosesinin adi qaydada davam etdirilməsi, əksər müəssisələrdə iş rejiminin ənənəvi qaydada təmin olunması səbəbiylə metropolitendə sıxlıqlar artıb. Bu sıxlıqlar zamanı sərnişinlərin ən çox müdaxilə etdiyi və ən çox təzyiqə məruz qalan vaqon elementləri arasında qapı xüsusi seçilir. Qapıların tutub saxlanması kimi fiziki təsirlər təbii ki, izsiz ötüşmür. Ona görə metropoliten də vaqon qapıları ilə bağlı məsələlərə xüsusi diqqət göstərir”.

Mətbuat katibi sözlərinə davam edərək həmçinin qeyd edib ki, hər bir qatar depoya texniki baxış üçün daxil olarkən bütün sistemlərdən əlavə olaraq qapı sistemləri, salonun oturacaqları və digər məsələlərin hamısına xüsusi qaydayla yanaşılır: ”Sıxlıqlar dövründə yaşana biləcək problemlərin hər birinin vaxtında qarşısının alınması üçün işlər görülür. Yay dövründə ümumiyyətlə, belə problemlər yaranmır. Çünki sərnişin sıxlığı olmur. Digər fəsillərdə isə bu cür hallar maksimum ayda bir dəfə və ya bir neçə aydan bir baş verə bilir.

Son günlərdə stansiyalarda yaşanan izdihamların səbəbi isə məncə, hər kəsə bəllidir. Yeni il günündən etibarən ”Sahil” və ”28 May” stansiyalarında kifayət qədər sıxlıq müşahidə olunur. Həftə builki Yeni il gecəsində metropolitenin iş rejimi nəzərdə tutulan vaxtdan əlavə bir saat da uzanmışdır. Şəhər mərkəzinə yaxın stansiyalarda xüsusi gücləndirilmiş qaydada iş rejimi təmin olunub. Artıq bu stansiyalarda yaşanan izdihamlar qeyri-adi səhnə adlandırılmaz olmaz. Metropoliten stansiyalarının bəlli sayda sərnişin tutumu, giriş və buraxılış qabiliyyəti var. Buna uyğun olaraq hər bir məsələ tənzimlənib və sərnişindaşımada heç bir problem yaşanmayıb”.

*Ləman Əlizadə*

# Serialdan 50 min manat qazanacaqlar



Çəkilişlərinə start verilən ”Ailə” serialında rol alan aktrisa Serenay Sarıkayayla Kıvanç Tatlıtuğun alacağı qonorar bəlli olub.

Axşam.az xəbər verir ki, aktrisa hər bölüm üçün 500 min lirə, aktyor isə milyon lirə məvacib alacaq. Qeyd edək ki, serial çərşənbə axşamları yayımlanacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**

**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**